ZAKİR BAYRAMLI

MƏN ÇAĞLAYAN BİR BULAĞAM

(Şeirlər, qəzəllər və poema)

“Müəllim” nəşriyyatı
Bakı – 2017

Redaktor: Vahid Balağa

Zakir Bayramlı. **MƏN ÇAĞLAYAN BİR BULAĞAM.** Bakı: "Müəllim" nəşriyyatı, 2017. – 112 səh**.**

Bu kitab əlli ildən artıq bədii yaradıcılıqla məşğul olan şair-publisist Zakir Bayramlının poeziya həvəskarlarına təqdim etdiyi üçüncü şeir kitabıdır.

Kitaba şairin Vətənə, torpağa, məhəbbətə həsr etdiyi və başqa mövzularda qələmə aldığı şeirlər, qəzəllər və "Qobustan dünyası" adlı tarixi poeması daxil edilmişdir.

Ümid edirik ki, Z.Bayramlının doğma yurda, sevgi-məhəbbətə və digər mövzulara həsr etdiyi bu şeirlər kitabı onun bədii yaradıcılığını izləyən oxucular tərəfindən rəğbətlə qarşılanacaq və onların böyük marağına səbəb olacaqdır.

ISBN 978-9952-435-48-1

© Zakir Bayramlı, 2017

ÖN SÖZ

ÇAĞLAYAN BULAĞIN YENİ NƏĞMƏLƏRİ

Şair-publisist, “Qızıl Qələm” mükafatı laureatı Zakir Bayramlı oxuculara təqdim etdiyi üçüncü şeirlər kitabına “Mən çağlayan bir bulağam” adını verib. Kitaba müəllifin müxtəlif mövzularda yazdığı şeirlərlə yanaşı onun qəzəlləri və “Qobustan dünyası” adlı poeması da daxil edilib.

Kitabın I bölməsi “Vətən nəğmələri” adlanır. Bu bölmədə şair-publisistin Vətənə məhəbbət mövzusunda yazdığı çoxlu şeirləri öz əksini tapıb. Həmin bölmədə ilk şeir isə “Ey Vətən!” adlanır. Müəllif Vətənin bədii tərənnümünə belə başlayır:

Ömrümün mənası, dünya gözəli,
Sənsən həyatımın ilki,əzəli.
Sənə həsr edirəm seiri, qəzəli,
Hüsnün, camalındır məni ram edən,
Ey Vətən!

Və şeirin sonunda müəllif düşmən tapdağı altında olan torpaqlarımızın tezliklə azad olunacağına ümid bəsləyir:

Dünyaya səs salan ordun var bu gün,
Düşmənə dünyanı edib dar bu gün.
Taleyin olacaq sənə yar bir gün,
Sənə diş dıcamaz daha hər yetən.
Ey Vətən!

Zakir Bayramlının şeirlərində Vətən mövzusu başlıca yer tutur. Elə buna görə də o, kitabın ilk bölməsini Vətənə, doğulub boya-başa çatdığı qədimdən qədim Şabrana həsr edib:

Ötüb qanlı tarix, qayıtmaz geri,
Azad firavandır Şabran elləri.

Qaytarıb özünə adını Şabran,
Yandırıb ocaqda odunu Şabran.

Əbədi yanacaq bu od, bu ocaq
Bu dünya durduqca o da duracaq.

Şabran torpağının daş yaddaşı-ulu Çıraqqalanı isə şair belə tərənnüm edir:

De hansı memarın, hansı ustanın,
Əliylə hörülüb ömür dastanın?
Yenə "Şabran " adlı qədim ostanın,
Olmusan yolunda çılçıraq qala.
Səndə şəfa suyu var Çıraqqala.

Nə vaxtdır dünyanın marağındasan,
Neçə yüz illərin sorağındasan.
Fəqət, uçurumun qırağındasan,
Qaytaran yox səni o qıvraq hala.
Sənin neçə yaşın var Çıraqqala?

Zakir müəllimin vətənpərvərlik mövzusuna həsr etdiyi "Qalalar", "Lələtəpə zəfəri", "Qələbə sevincin yaşadığın gün", "Şəhidlik zirvəsi", "Şəhid anası", "Darıxmışam" şeirləri diqqət çəkəndir. Onları həyacansız oxumaq mümkün deyil. Müəllif bu şeirlərində sözün möhtəşəm gücündən məharətlə istifadə edərək sanki oxucunu Vətənin müdafiəsinə çağırır.

Müəllifin "Şəhidlik zirvəsi" şeirini oxuyarkən sanki insan bu zirvənin dünyanın ən uca dağlarından da yüksəkdə yerləşdiyinə tam əmin olur:

Fəqət onlardan da uca zirvə var,
O zirvə uğrunda verilir canlar.

Nə səyyah-alpinist, nə dahi alim,
Qalxmaz o məqama bilsə yüz elm.

Şəhidlik zirvəsi adlanır ora,
Acizi, qorxağı yad sanır ora.

O, məqam nə qışlaq, nə yaylaqdadır,
“Himalay”, “Tyanşan” nə “Şahdağ”dadır.

Kitabın ikinci “ Müxtəlif şeirlər” bölməsinə şairin ayrı-ayrı dövrlərdə qələmə aldığı bir sıra şeirləri daxil olunub.

Kitabın III bölməsi “Məhəbbət tərənələri” adlanır. Oxucu bu şeirləri oxuyarkən sevginin ecazkar gücünü müəlliflə birgə yaşayır.

Sevgi dolu bir dünyadır həyatım,
Haqdan doğur nəğmələrim, bayatım.
Mən sevgisiz necə qalxım, boy atım?
Ağır yükdür, çox çətindir daşımaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

Müəllifin kitabının IV bölməsinə onun qəzəl janrında yazdığı əsərləri daxil edilmişdir. Qəzəllər dünya, cavanlıq, səbr, həqiqət , sevgi- məhəbbət, muğamat, toy, ailə və diğər mövzulara həsr olunub. Azərbaycan muğamları insanları ecazkar duyğularla qidalandırmağa və onları əlçatmaz sehirli aləmə aparmağa qadirdir:

Şur dəzgahı, təsniflə çahargahı gözəldir,
Sevdirdi bizə “Cabbarı” , həm “Xanı” muğamat.

Olmur qınamaq “Dilqəmi”, “Şahnazı”, “Herratı”,
Zəngulə çəkib coşdurur al qanı muğamat.

Eşqin əbədi carçısı, ehkamı məhəbbət,
Aşiq eləyib çox ərə, nisvanı muğamat.

Yad musiqi alətləri, xaric səsə qarşı,
Tarla, kaman ilə edir üsyanı muğamat.

Zakir, var əgər musiqi zövqün ona ruh ver,
Canlandıra şeirindəki misranı muğamat.

Şairin bu kitabında oxuculara "Qobustan dünyası" poeması da təqdim olunub. Müəllif bu əsərində tarixlərin yadigarı "Qobustan" adlı daş şəhərin, nəhəng təbii abidə kompleksinin qədim keçmişini və bugününü ecazkar misraların dili ilə tərənnüm edib. O, sevimli bu tarixi əsərini "Epiloq"unu belə bir sonluqla başa çatdırıb:

Qobustan tarixin ədəb ərkanı,
Qobustan ölkəmin gözəl məkanı.

Yaşayır bu gün də öz adı ilə,
Açıb qucağını böyük bir elə.

Ayrıldım bu nadir daş incilərdən,
Ayıldım tarixi düşüncələrdən.

Nəhayət şeirimi sona yetirdim,
Bu tarix dastanın yazıb bitirdim.

Şair-publisist Z.Bayramlının bu kitaba daxil edilmiş əsərləri haqqında qısaca da olsa oxuculara məlumat verdik. İndi isə istəkli oxucular söz sizinkidir. Müəllifin böyük istək və məhəbbətlə, yaradıcılıq eşqi ilə, yüksək sənətkarlıq məharəti ilə qələmə aldığı əsərləri oxuyub ruhu qida alın və son nəticədə kitaba dəyər verin.

Aydın Tağıyev,
Yazıçı publisist, AYB-nin Şabran filialının sədri,
Prezident təqaüdçüsü

I BÖLMƏ

VƏTƏN NƏĞMƏLƏRİ

Ömrümün mənası, dünya gözəli,
Sənsən həyatımın ilki,əzəli.
Sənə həsr edirəm seiri, qəzəli,
Hüsnün, camalındır məni ram edən,
Ey Vətən!

EY VƏTƏN !

Ömrümün mənası, dünya gözəli,
Sənsən həyatımın ilki,əzəli.
Sənə həsr edirəm seiri, qəzəli,
Hüsnün, camalındır məni ram edən,
Ey Vətən!

Sənsiz neyləyirəm dünya mülkünü?
Vətənsiz xoş keçməz insanın günü.
Yazma həyatıma belə sürgünü,
Candan ayrı düşsə yaşamaz bədən.
Ey Vətən!

Sən nəhəng dünyada kiçik məkanım,
Andım, inanc yerim, evim,ehkamım.
Səni yaşatmağa çatar imkanım,
Boylanıb uzaqdan,ötmərəm gendən.
Ey Vətən!

Qururum, vüqarım sənə bağlıdır,
Kədərin, niskilin məni ağladır.
Bilirəm, nə vaxtdır sinən dağlıdır,
Əlac gözləyirsən dərdinə məndən.
Ey Vətən!

Dünyaya səs salan ordun var bu gün,
Düşmənə dünyanı edib dar bu gün.
Taleyin olacaq sənə yar bir gün,
Sənə diş dıcamaz daha hər yetən.
Ey Vətən!

Çox çəkməz çatarsan halal payına,
Bütün övladların yetər hayına.
Bir gün oturarıq düşman vayına,
Olmaz bəd niyyətlə içindən ötən.
Ey Vətən!

“ŞABRAN”IN TƏRƏNNÜMÜ

Hər kəs qonaq gəlsə əgər Şabrana,
Bələd olacaqdır qədim Şirvana.

Bu yer çox uludur yaşı bilinməz,
Yüz illər ötsə də izi silinməz.

Tarixdən söz açar gələn insana,
Neçə yol göstərib cümlə cahana.

Şabran öz dövründə bir şəhər olmuş,
Bütün tarixlərə adını salmış.

Şərqdən qərbə doğru açılıb yolu,
Qərbin şərqə tərəf uzanıb qolu.

Dayanıb şərq ilə qərb arasında,
Yaşayıb sülh ilə hərb arasında.

İgid, mərd insanlar yaşayıb burda,
Daim arxa olub bu elə, yurda.

Enməyib yüz illər kəhər atından
Çıxıb tarixlərin yeddi qatından.

Nə qədər dağılıb qalsa da viran,
Düşmənlər bu yerdən qovulub hər an.

Qədim ipək yolu içindən keçib,
Tacirlər, sarvanlar suyundan içib.

Karvanlar, zəvvarlar yol alıb burdan,
Fəqət hücumlar da olub hər yandan.

Bu yerdə düşmənlər çox qılınc çalıb,
Şabran bizim olub, bizimlə qalıb.

Ötüb qanlı tarix,qayıtmaz geri,
Azad firavandır Şabran elləri.

Qaytarıb özünə adını Şabran,
Yandırıb ocaqda odunu Şabran.

Əbədi yanacaq bu od, bu ocaq
Bu dünya durduqca o da duracaq.

ÇIRAQQALA

Açdım varaq-varaq ötən tarixi,
İllərin üstünü örtən tarixi.
Arayıb axtardım itən tarixi,
Bəlkə keçmişindən bir soraq ola,
Sənin neçə yaşın var Çıraqqala?

Durmusan sıldırım qaya başında,
Bir dağ vüqarı var dayanışında.
Diz çöküb ən azğın illər qarşında,
Salmısan tarixdən çox varaq yola,
Sənin öz tarixin var Çıraqqala.

Məkanın sökülməz, çökülməz qaya,
Bu yerdə bürclərin verib boy-boya.
Arxa, dayaq oldun elə, obaya
Qoymadın yurduma yad maraq sala.
Yenilməz vüqarın var Çıraqqala.

Bir qolun Xəzərin ləpələrində,
Biri Baba dağın təpələrində.
Gilgilçay səddinin pillələrində,

Düşdün zaman-zaman oturaq hala.
Sənin neçə yaşın var Çıraqqala?

Elin keşikçisi, xəbər qalası,
Düşməni qorxudan xətər qalası.
Son döyüş meydanı, zəfər qalası,
Zamanı nə sayaq qaytaraq dala?
Sinəndə xəbərlər var Çıraqqala.

Vətənin qaranlıq, zülmət halında,
Çırağa dönmüsən elin yolunda.
Xəyanət olmayıb bu amalında,
Azıb düşməmisən sən qıraq yola.
Andın, sədaqətin var Çıraqqala.

De hansı memarın, hansı ustanın,
Əliylə hörülüb ömür dastanın?
Yenə "Şabran" adlı qədim ostanın,
Olmusan yolunda çılçıraq qala.
Səndə şəfa suyu var Çıraqqala.

Nə vaxtdır dünyanın marağındasan,
Neçə yüz illərin sorağındasan.
Fəqət, uçurumun qırağındasan,
Qaytaran yox səni o qıvraq hala.
Sənin neçə yaşın var Çıraqqala?

QALALAR

Büründüm tarixin qədim kürkünə,
Çıxdım səyahətə Vətən mülkünə.

Gəzdim qarış-qarış doğma diyarı,
Görüm nə qalıbdır qədimdən varı.

Seyr etdim dağları, sıldırımları,
Dolaşdım aranı, düz durumları.

Bir zaman dünyanın bu kəhkəşanı,
Olubmuş qalalar, bürclər məkanı.

Gərəkli məqsədə tikilib onlar,
Yerdən göyə doğru dikilib onlar.

Hərə öz lövbərin salıb tarixdə,
Müxtəlif adlarla qalıb tarixdə.

Olub müşahidə, xəbər qalası,
Olub hünər, qeyrət, sipər qalası.

O vaxtlar Vətənin sərhədlərində
Qalalar tikilib uca yerində.

Düşmən təhlükəsi olan zamanda,
Tonqallar yanarmış qala damında.

Sonra da birləşib biri-biriylə,
Birgə vuruşardı düşmənlər ilə.

Yurd əhli yaşardı harda qala var,
Qoymazdı onları darda qalalar.

Qalalar dövrünün qanunlarında,
Qanlı müharibə oyunlarında,

Alınmaz qalalar qalib olardı,
Ölkə işğal olmaz azad qalardı.

Qalanı qoruyub saxlamaq üçün,
Düşməni rahatca oxlamaq üçün.

Həmişə yüz ölçüb, bir biçilərdi,
Qalaya əl çatmaz yer seçilərdi.

Fəqət nə mənası bütün bunların,
Quruca adları qalıb onların.

Keçib zaman-zaman fırtınalardan,
Cəmi bir neçəsi qalıb onlardan.

Əksər qalaların yeri dağlıqdır,
Əfsus, uçuq-sökük, xarabalıqdır.

Bir vaxtlar alınmaz məğrur qalalar,
Baxımsız, bərpasız, viran qalıblar.

Saydım adlarını, itirdim sayın,
Duydum neçəsinin harayın, hayın.

Neçə qalamızın bağlanıb əli,
Tonqallar yandırıb, səsləyək eli.

Çalaq dayanmadan cəndi havasın,
Qurtaraq düşməndən “ Şuşa” qalasın!

LƏLƏTƏPƏ ZƏFƏRİ

Açıldı həstətin qapanmış yolu,
Kəsildi düşmənin uzanmış qolu.
Azəri yurdunun bu Azər oğlu,
Qorxmadı mərmidən, yağan qəlpədən.
Qovdu düşmənini "Lələtəpə"dən.

Pozuldu atəşkəs, qızışdı döyüş,
Qədim "Qarabağa" başlandı dönüş.
"Cocuq Mərcanlı" dan yol aldı yürüş,
Keçdi tanış izdən, doğma ləpirdən,
Boylandı Vətənə Lələtəpədən.

Çalındı intiqam, zəfər nəğməsi,
Vətən əsgərinin ucaldı səsi.
Daraldı düşmənin mənfur nəfəsi,
Düşdü vahiməyə bu səksəkədən.
Tutuldu atəşə Lələtəpədən.

Ordu ümidimiz, çırağımızdır,
Qələbə əzmimiz, yarağımızdır.
Zirvəyə sancılan bayrağımızdır,
Hələ çox keçəcək dağdan, dərədən,
Yolu "Xankəndidir" Lələtəpədən.

Şəhidlər verildi, qanlar töküldü,
İşğalçı ordunun dizi büküldü.
Qondarma sərhədlər, bəndlər söküldü,
Çox oldu arada quyruq tərpədən,
Getdilər biryolluq Lələtəpədən.

Zəfər müjdəsidir bu kiçik hünər,
Bir gün başa çatar, düşmənlər yenər.
Yurddan qovulmuşlar yurduna dönər,
Hamı məmnun qalar bu xoş töhfədən.
Salamlar "Şuşa"nı Lələtəpədən.

QƏLƏBƏ SEVİNCİN YAŞAMAQ ÜÇÜN

(Tərtərli dostum şəhid atası Tofiq Quliyevə)

Bitib səksən ili artıq ömrünün,
Tükənmir əzablı, kədərli günün.
Doğma el-obaya yetişmir ünün,
Yüz ilə bənzəyir hər ötən ilin.
Darıxma qayıdar yurduna elin.

Düşmən atəşkəsə etməyir əməl,
Sülhə, barışığa qoyulmur təməl.
Kəsib qarşımızı nə qədər əngəl,
İgidlər gərəkdir toplasın gücün,
Qələbə sevincin yaşamaq üçün.

Sən şəhid atası, sən elin əri,
Səbr edib yaşadın ağır illəri.
Yurdunda kök atan bəd əməlləri,
Kökündən qoparıb tullayacaqlar,
Baş əyib qarşında xar olacaqlar.

El bir olub göstərəcək gücünü,
Düşmənindən alacaqdır öcünü.
Günəş nura boyayacaq bürcünü,
Baxt ulduzun parlayacaq bu yaşda.
Bil ki, qalib gələcəksən savaşda.

Artıq yetişibdir güclü ordumuz,
Yoxdur yağılardan daha qorxumuz.
Bir gün qurtaracaq dardan yurdumuz,
Əzmini , gücünü qaytaracaqsan.
Elinə, obana qayıdacaqsan.

Gözlə sən o günü , deyildir uzaq,
Çıxacaq döyüşdən ordun üzü ağ.
Düşmən sinəsinə çəkiləcək dağ,

Məhrum ediləcək dayaqlarından.
Əyilib öpəcək ayaqlarından.

Biğanə deyidir Zakir dərdinə,
Düşünüb, varıbdır hər an fərqinə.
Elin sənin kimi məğrur mərdinə,
Qələbə sevincin görmək diləyir.
Onun qələmindən çıxıb bu şeir.

ŞƏHİDLİK ZİRVƏSİ

1

Çoxdur yer üzündə zirvə adları,
Yazmaq istəmirəm bir-bir onları.

Yüksəklik,ucalıq rəmzidir zirvə,
Yüksəlmək, ucalmaq əzmidir zirvə.

Ən yüksək məqamdır zirvə dağlarda,
Bu məqam olmayır aşağılarda.

Dağların zirvəsi daim qar olur,
Oraya aparan yollar dar olur.

Zirvələr cəlb edir alpinistləri,
Yaşadır onlara ölüm riskləri.

Əzabdır zirvənin sonuna çatmaq,
Fərəhdir zirvədən dünyaya baxmaq.

İnsanlar əzmli mətin olsalar,
Qarşıya inamlı məqsəd qoysalar.

Yüksəyə ucalmaq, enmək də olar
Uca zirvələri yenmək də olar.

2

Çoxdur yer üzündə uca zirvələr,
Vəsf edir onları adi cümlələr.

Fəqət onlardan da uca zirvə var,
O zirvə uğrunda verilir canlar.

Nə səyyah-alpinist, nə dahi alim,
Qalxmaz o məqama bilsə yüz elm.

Şəhidlik zirvəsi adlanır ora,
Acizi, qorxağı yad sanır ora.

O, məqam nə qışlaq, nə yaylaqdadır,
“Himalay”, “Tyanşan”, nə “Şahdağ”dadır.

Oranın yolları ölümdən keçir,
Şəhidlik adlanan bölümdən keçir.

Hər insan o yolun yolçusu olmaz,
Mərd insan o yoldan geriyə qalmaz.

Şəhid zirvəsini ölüm fəth edir,
O yolla zirvəyə şəhidlər gedir.

Şəhid var Tanrının qulu rolunda,
Can qoyub imanı, dini yolunda.

Lakin şəhid də var cavan yaşında,
Döyüşüb, can qoyub yurd savaşında.

Şəhidin igidlik həddi bilinməz,
Qoyub getdikləri izlər silinməz.

Vətənə,torpağa,xalqa məhəbbət,
Onların qanıyla yoğrulub əlbət.

Tanrı alimləri dağdan endirir,
Şəhidə sonsuz bir ucalıq verir.

Şəhidlik zirvəsi mənən yaranmış,
Tanrı dərgahında yerini almış.

O zirvə millətə, xalqa örnəkdir,
Xalqdan şəhidlərə sonsuz hörmətdir.

ŞƏHİD ANASI

Kədərli biçimdə, qəm libasında,
Bir ana, ümidlə yolu süzürdü.
Sönüb qaralmışdı “od sobasında”,
Yolun sonsuzluğu onu üzürdü.

Kim idi bu ana, nə idi dərdi?
Niyə dayanmışdı yol kənarında?
Bir vaxt dərdsizlikdən deyib-gülərdi
İndisə donmuşdu qan damarında.

Gəldim yaxınına, halını sordum,
Qayğıyla soruşdum dərdini ondan.
Elə bil ananın qəlbini yardım,
Özüm də kövrəldim qopan ahından.

Ağlaya-ağlaya açdı dərdini,
Danışdı çəhhəçi oğlanlarından
Ana itirmişdi iki mərdini,
Söz açdı onların sağ anlarından.

Cəbhədən bəd xəbər gəlmişdi ona,
Dönmüşdü leysana gözünün yaşı,
Yaman sarsılmışdı xəbərdən ana,
Düşmən bitirmişdi iki qardaşı.

Düşmənlə döyüşdə amansız olmuş,
Ananın bu qoşa ciyər parası.
Şəhidlik zirvəsin can verib almış,
Ananın bu iki məğrur balası.

Şəhid anasıydı bu məsum qadın,
Oğullar vermişdi Vətən yolunda.
Yaddan çıxarmışdı bəlkə öz adın,
Övlad axtarırdı boş xəyalında.

Barışmaq istəmir bu dərdlə ana,
Hələ də ümidlə yola baxırdı.
Sanki yol vermişdi bu dərdi ona
Yola gözlərindən yaş axıdırdı.

Övlad böyütmüşdü min bir əzabla,
Vətənə layiqli igid və qorxmaz.
Çəkdilər sınağa ağır hesabla
Ölənlər heç zaman ayağa qalxmaz.

Bu məğrur anaya elə gəlirdi,
Ölməyib, sağdırlar hələ oğullar.
Əsil həqiqəti ana bilirdi,
Şəhidlər hər zaman diri olurlar.

Baxıb heyran oldum bu mərd insana,
Ananın önündə diz üstə çökdüm.
Mənasız göründü təsəllim ona,
Əyilib sakitcə əlindən öpdüm.

DARIXMIŞAM

Neçə vaxdır çatmır mənə nübarı,
Ürəyimdə kök bağlayıb qubarı.
Yağı düşmən dərir bağdan "o barı",
Kəhər atlar həsrət qalıb qırmanca,
"Şuşa" üçün darıxmışam yamanca.

Unudulub gözəl Turşsu yaylağı,
Qan axıdır gözdən İsa bulağı.
Viran qalıb Xan qızının oylağı,
Çatmır ora hələ səsim, harayım,
Şuşa üçün gərək yollar arayım.

Əcdadların izi qalıb o yerdə,
Neçə düşmən gözü qalıb o yerdə .
"Molla Pənah" sözü qalıb o yerdə,
Xarı bülbül fəqan edir qəfəsdə,
"Şuşa" deyir ölərkən son nəfəsdə.

Sapındılar atlar “Cıdır düzü”ndən
Yayındılar oxlar düşmən gözündən.
Məğlub olduq arxasızlıq üzündən,
Yağıların qanın töküb içmədik,
Şuşa üçün canımızdan keçmədik.

Mən qəlbimi Qarabağda qoymuşam,
Vətənimdə qaçqın, sürgün olmuşam.
Həsrət dolu günlərimdən doymuşam,
Xanın kəndi bir gün yada salınsın.
Şuşa üçün zəfər marşı çalınsın.

O yerlərə yenə sahib olaq biz,
Yurdumuzu düşmənlərdən alaq biz.
Xainləri gərək oda salaq biz,
Azəriyik od səbrimiz tükəndi,
Bizimkidir Şuşa ilə Xankəndi!

TƏHSİLİM

Dünyamızı arxasınca aparan,
İldən-ilə yaşa dolan təhsilim.
Ölkəmizi nadanlıqdan qurtaran,
Yolumuza işıq salan təhsilim.

Cəhaləti yolumuzdan itirdin,
Savadsızlıq dövranını bitirdin,
Ömrümüzə yeni həyat gətirdin,
İlahidən qüvvət alan təhsilim.

Günlərimi ilə düzdüm sənlə ,
Çox cəfaya, zülmə dözdüm sənlə,
Hər elmdən xəbər üzdüm sənlə,
Amalıma hakim olan təhsilim.

Güclə qüdrət təhsildədir deyiblər,
Kitablara hörmətlə baş əyiblər,
Çox alimlər elmindən don geyiblər,
Deyilənlər deyil yalan təhsilim.

İnsanların ən son sözü səndədir,
Altı yaşdan daim gözü səndədir,
Yaşamağın məğzi, özü səndədir,
Nəsillərdən nəslə qalan təhsilim.

Sən Zakirlə birgə ömür yaşadın,
Sərvətini xəzinəmə daşıdın,
Elmin ilə həyatımı oxşadın,
Mənə ən xoş nəğmə çalan təhsilim.

BÜLBÜL VƏ QƏFƏS

Pərişan etdilər bir gün bülbülü
Aldılar əlindən bağçanı, gülü.

Saldılar yazığı dəmir qəfəsə,
Bülbül həsrət qaldı azad nəfəsə.

Hər gün verilsə də suyu, həm dəni,
Yanında deyildi könül həmdəmi.

Odur ki, sönmüşdü həyat həvəsi,
Batmışdı bülbülün o gözəl səsi.

Çırpırdı qəfəsdə özün hər yana,
Rahatlıq vermirdi bu qəfəs ona.

Onu dustaq edən qəddar insanlar
Ondan görmədilər nəğməli anlar.

Bülbül fəqan edib nalə çəkirdi,
Sanki, ürəklərdə insaf əkirdi.

Qəfəsin sahibi o nadan insan,
Etmişdi qəfəsi bülbülə zindan.

Elə zənn edirdi oxuyar bülbül
Öyrəşər qəfəsə, unudular gül.

Dilsiz əsirindən qalıb narazı,
Anlaya bilmədi o quşcuğazı.

Daim azad olur qanadlı quşlar,
Cəh-cəh vura bilməz əsir olmuşlar.

Bülbülün sevdiyi bağçadır, çöldür,
Bağçalar gözəli tikanlı güldür.

O sevda quşudur sinəsi xarlı
Sevgi nəğməkarı, məxrur, vüqarlı.

Çox kiçik olsa da boyu, qanadı
Böyük məhəbbətlə çəkilir adı.

Odur məhəbbətin tərənnümçüsü,
Onda çox böyükdür eşqin ölşüsü.

Bu azad sevginin azad sultanı,
Qəfəsdən seyr edir indi hər yanı.

Bülbülün xəyalı çöllərdə qaldı,
Pərişan əhvalı dəyişməz oldu.

Nəhayət anladı insan bülbülü
Bildi ki,oxşamaz qəfəsdə gülü.

Nə qədər sevsə də onu insanlar,
Onun öz sevdası, öz dünyası var.

Kövrəltdi insanı quşun haləti,
Daşıya bilmədi bu xəcaləti.

Bülbülü qəfəsdən buraxdı çölə
Bülbül pərvaz etdi yetməkçin gülə.

KEÇİQAYASI

1

Çoxdur Vətənimin dilbər ğuşəsi,
Sıldırım qayası, dağı, meşəsi.

Şabran elindədir onlardan biri,
Həddindən səfalı, gözəldir yeri.

Adını el qoyub: - "Keçiqayası"
Vəhşi təbiətin canlı aynası.

Görənlər saxlaya bilməyir özün,
Baxır heyranlıqla, qırpmadan gözün.

Bu yerdə hər şeyin öz ahəngi var,
Təbii çaları, uyğun rəngi var.

Fəsillər bir-birin əvəzlədikcə,
Dəyişir rənglər də seyr elədikcə.

Şabranın bu qədim, gözəl məkanı,
Ram edir özünə hər bir insanı.

Kol-koslu yamaclar, yovşanlı yallar,
Dağlara aparan, çınqıllı yollar.

Keçir meşəlikdən çıxır talaya,
Qalxır Keçiqaya adlı qalaya.

Sirrli bir aləmdir güman içində,
Hətta gözəl olur duman içində.

Bu adın mənası qədimdən gəlir,
Bu adı bu yerə verənlər bilir.

Çoxdur əfsanəsi,rəvayətləri,
Yaşadır özündə hekayətləri.

2

Deyirlər bu dağlıq, qayalıq məkan,
Verib insanlara çox böyük imkan.

Tükənməz sərvəti, varı olubdur,
Bu gün də o vardan hələ qalıbdır.

Ötüb zaman-zaman illər, fəsillər,
Gəlib oba-oba ellər, nəsillər.

Udublar bu yerin abı-havasın,
Dadıblar həyatın zövqi-səfasın.

Bura ta qədimdən yaylaq yeridir,
Dinclik, istirahət, ovlaq yeridir.

Buraya xəqanlar göz tuşlayıblar,
Şahlar ov ovlayıb, quş quşlayıblar.

Ovçular bağlayıb dar keçidləri,
Ovlanıb qayalıq dağ keçiləri.

İçib bulaqların sərin suyundan,
Çıxıbdır ovçular hər cür oyundan.

Tonqallar qalayıb, çadır qurublar,
Nəğmələr oxuyub, halay vurublar.

Bu gün də bu yerə insanlar gəlir,
Kimi ov ovlayır, kimi dincəlir.

Beləcə yaşayır “Keçiqayası”
Oğlaqlar mülkünün canlı aynası.

Tanrının xoş gündə istəyi artmış,
Şabranda belə bir cənnət yaratmış.

KƏNDİM

Gözümü dünyaya qoynunda açdım,
Boy atıb böyüdüm, illəri aşdım.
Sığmadım məcrana, kükrəyib daşdım,
Apardım özümlə odunu kəndim.
Ucaltdım hər yerdə adını kəndim.

Uşaqlıq illərim keçibdi səndə,
Anam ilk donumu biçibdi səndə.
Könlüm yurd andını içibdi səndə,
Saf həyat ətirli, səfalı kəndim.
Qəlbimdən çıxmayan vəfalı kəndim.

Solan ömürləri çox itirmisən,
Yerində təzə-tər gül bitirmisən.
Məni bu ərsəyə sən yetirmisən,
Zəhmətkeş, əlləri qabarlı kəndim.
Torpağı bəhrəli, nübarlı kəndim.

Açsam da qoynunda nurlu səhərlər,
Bir gün əl elədi mənə şəhərlər.
Çox olub ömründə belə təhərlər,
Vermisən bizləri şəhərə kəndim.
Dözmüsən kədərə, qəhərə kəndim.

Düşdüm uşağlığın qarğı atından,
Baxdım yeniyetmə, gənclik taxtından!

Çıxdım yollarının tozlu qatından,
Yol aldım baxtımın dalımca, kəndim.
Bəlkə də su atdın dalımca, kəndim.

Sən yenə əvvəlki vüqarındasan,
Ömrümün qışında, baharındasan.
Zakirə əhdində, ilqarındasan,
Könlümün qənirsiz gözəli kəndim.
Yurdumun “ sumaqlı”, məzəli kəndim.

A ŞABRANIN GÖZƏLİ!

Sən ömrümün aynasısan, gözüsən,
Həyatımın mənasısan, özüsən.
Gəl gizlətmə dil altında sözü sən,
Aç söylə ki, olsun incə, məzəli.
A Şabranın gözəli!

Tanıdaram bu dünyaya səni mən,
Qaldıraram günə, aya səni mən.
Sığdırmaram el-obaya səni mən,
Çox yerim var sənlə qoşa gəzməli.
A Şabranın gözəli!

Çəmənimdə ləçəklənmiş çiçəksən,
Bağlardakı çiçəklərdən göyçəksən.
Uydurduğum xəyal deyil, gerçəksən,
Çiçəkləri tellərinə düzməli .
A Şabranın gözəli!

Yel əsdikcə qarışdıqca tellərin,
Daraqlayır, sığallayır əllərin.
Necə kəsim qarşısını yellərin?
Daha məndə hal qalmayıb dözməli.
A Şabranın gözəli!

Hərdən gözün sönük baxır gözümə,
Baxışların kölgə salır üzümə.
Bəlkə şəkər az qatmışam sözümə?
Eybimmi var dodağını büzməli?
A Şabranın gözəli!

Kənd qızları bulaq üstdə görüşər,
Oğlanlarla oğru-oğrun gözləşər.
Kuzəsinə su dolduqca sözləşər,
Çıx qarşıma, hər gün çiynin kuzəli.
A Şabranın gözəli!

Nazlanırsan qönçə güllər içində,
Qənirsizsən şux gözəllər içində,
Tanrı səni səhv etməyib seçimdə
Zakir sənə həsr etdi bu qəzəli.
A Şabranın gözəli!

QƏÇRƏŞ

Şah dağın səfalı havasətində,
Yaşıl meşələrin əhatəsində.

Doğma Azərbaycan oymaqlarında,
“Quba”nın tarixi qaynaqlarında.

Bir “cənnət” məkan var Qəçrəş adında,
Görənin ömürlük qalır yadında.

Qəçrəş bir gözəldir Quba elində,
“Qara qız” deməkdir elin dilində.

Köç salıb Qudyalçay sahillərində,
Yaşayıb zamanın min illərində.

Bu kəndin təbii gözəllikləri,
Özünə məxsusdur özəllikləri.

Füsunkar meşəsi, barlı bağları,
Gül-çiçək ətirli göy otlaqları.

Bulaq zümzüməsi, çayın nəğməsi,
Xoşdur, şəlalənin dağdan enməsi!

Hər şey təbiidir, gözəldir burda,
Nəğmədir, şeirdir, gözəldir burda.

Yurdun bu ecazkar gözəl guşəsi,
Ram edir buraya gələn hər kəsi.

Bu kəndin fədakar, mərd insanları,
Arxada buraxıb çətin anları.

Yalvarıb Tanrıya, düşüb minnətə,
Qəçrəşi döndərib əsil cənnətə.

Olub istirahət, şəfa mərkəzi,
Qəçrəşin dünyada yoxdur əvəzi.

Havası səfalı, suyu şəfalı,
Suyundan içənin xoş olur halı.

Dünyadan turistlər axışıb gəlir,
Bu yerdə minlərlə insan dincəlir.

Mənim də güzarım düşüb bu kəndə,
Ovlayıb könlümü, salıb kəməndə.

Bu cənnət məkanı istəsən görmək,
Asma körpüsündən keçəsən gərək.

Qəçrəş bir gözəldir, Quba elində,
Qara qız deməkdir elin dilində.

GÖR NƏ GÖZƏLDİR

Dolaşma dağları, düzənlikləri,
Çəməndə axtarma gözəllikləri.
Çoxdur təbiətin özəllikləri,
Boylan səmasına, gör nə gözəldir.
Bürün havasına, gör nə gözəldir.

Xoşdur mənzərəsi uca dağların,
Sənsiz yox ləzzəti o yaylaqların.
Həzin zümzüməli buz bulaqların,
Suyundan nuş elə, gör nə gözəldir.
Könlünü xoş elə, gör nə gözəldir.

Tanrı fəsillərə bölüb ayları,
İldə on ikidir cəmi sayları.
Hər fəslin öz rəngi, öz olayları,
En yaydan payıza, gör nə gözəldir.
Çıx qışdan, keç yaza, gör nə gözəldir.

Düzmə gül-çiçəyi çox ətrafına,
Uyma təbiətin bu israfına.
Rast olsan hər şeyin əgər safına,
Saf ömür yaşamaq gör nə gözəldir.
Könüllər oxşamaq gör nə gözəldir.

Saysızdır dünyada görməli yerlər,
Vəhşi təbiətli, bürməli yerlər.
Nə çoxdur xoş ömür sürməli yerlər.
Sakin ol birində, gör nə gözəldir.
Hər zövqü yerində, gör nə gözəldir.

Zakir, fəxr eləmə gözəllərinlə,
Səni mat qoyaram qəzəllərimlə.
Yazmışam bu şeiri öz əllərimlə,
Oxu misra- misra, gör nə gözəldir.
Sözlər sıra-sıra, gör nə gözəldir.

II BÖLMƏ

MÜXTƏLİF ŞEİRLƏR

Nə dayaz, yerdədir, nə də dərində,
Dolaşır fəzada, öz məhvərində.
Haylanır günəşin həndəvərində,
Ayları illərə daşıyır dünya.
Fırlana-fırlana yaşayır dünya.

ACI GERÇƏK

Səngimək bilməyir müharibələr,
Dünya yaranandan bu günə qədər.
İnsanlar məhv olur mənasız, hədər,
Bilinmir neçə il davam edəcək,
Nə zaman bitəcək bu acı gerçək?

Göydən yerə doğru enir silahlar,
Yerdən göyə qalxır nalələr, ahlar.
Hələ də hökm edir xəqanlar, şahlar,
Zövq alır tökdüyü qanları görcək,
Nə zaman bitəcək bu acı gerçək?

Hər yana od saçır silahlı ordu,
Söndürən tapılmır alovu, odu.
Bəlkə and içibdir bəşər övladı,
Bütün ömrü boyu qanlar tökəcək?
Nə zaman bitəcək bu acı gerçək?

Yığıb yüz illəri minləyir dünya,
Ölüm nəğmələrin dinləyir dünya.
Dərdi dərd üstünə çinləyir dünya,
Barıt tüstüsündə solur gül, çiçək,
Nə zaman bitəcək bu acı gerçək?

İnsanın əzəldən bəddir gümanı,
Öz mülkü, əmlakı sanır dünyanı.
Bilir ki, məzardır sonda ünvanı,
Demir: dünya malın yığmaqdan əl çək!
Nə zaman bitəcək bu acı gerçək?

Arzuyla, istəklə doğulur insan,
Sevgi, məhəbbətlə yoğrulur insan.
Sevdiyi dünyaya ağ olur insan,
Zənn edir dirilik suyun içəcək,
Nə zaman bitəcək bu acı gerçək?

Terrorlar, hücumlar titrədir yeri,
İnsanlar bu yoldan çəkilmir geri.
Nişana alarkən əsmir əlləri,
Sanki insan deyil, öldürür milçək,
Nə zaman bitəcək bu acı gerçək?

Dünya nə üç günlük, nə beş günlükdür,
Gəlimli, gedimli, həm ömürlükdür.
Dünyanın dözümü, qəlbi böyükdür,
Hamı bu məkandan gəlib keçəcək,
Heç vaxt bitməyəcək bu acı gerçək.

DÜNYA

Nə dayaz, yerdədir, nə də dərində,
Dolaşır fəzada, öz məhvərində.
Haylanır günəşin həndəvərində,
Ayları illərə daşıyır dünya.
Fırlana-fırlana yaşayır dünya.

Canlı bir aləmdir göyün üzündə,
Kainat saxlayır onu özündə.
Daim təzələnir insan gözündə,
Hər günü təzədən başlayır dünya.
Fırlana-fırlana yaşayır dünya.

İnsan məskən salıb hər guşəsində,
Hərə öz sənəti, öz peşəsində.
Kimsəni qoymayır cavan səsində,
Yaşının üstünə yaş sayır dünya.
Fırlana-fırlana yaşayır dünya.

Dünyanın məqamı hamıya bəlli,
Tutub dayanmayın ondan beş əlli.
Şəninə tərif yaz, ya qaravəlli,
Fərqi yox, hamını daşlayır dünya.
Fırlana-fırlana yaşayır dünya.

Fəqət son zamanlar dəyişir donu,
Savaşlar, qovğalar məhv edir onu.
Çatıb qiyamətin o müdhiş anı,
Bu gün cəhənnəmə oxşayır dünya.
Fırlana-fırlana yaşayır dünya.

QİYAMƏT QOXUSU

Fələkmi çarxını döndərib geri,
Yoxsa ki, şıltaqlıq tutub göyləri?
Təkanlar, vulkanlar bürüyüb yeri,
Olaylar baş verir hər gün durmadan,
Qiyamət qoxusu gəlir dünyadan.

Ümmanlar kükrəyir, dalğalar köpür,
Kəndlər viran qalır, şəhərlər çökür.
Bütün bəşəriyyət göz yaşı tökür,
Sular sahillərə axır dəryadan,
Qiyamət qoxusu gəlir dünyadan.

Yağışlar, leysanlar ünvansız olub,
Sellər, qasırğalar amansız olub,
İnsanlar ümidsiz, gümansız olub.
Qartal sığınacaq umur qayadan,
Qiyamət qoxusu gəlir dünyadan.

Bəlkə də, günahlar özümüzdədir,
Düzgün yaşanmayan ömrümüzdədir,
Nələr törədirik, hər şey üzdədir.
Bizə asi olub bizi yaradan,
Qiyamət qoxusu gəlir dünyadan.

Gecəli-gündüzlü hey əlləşirik,
Sərvət axtarırıq, qazıb-eşirik,
Yerin nüvəsini oyub deşirik,
Sonra da bəd xəbər yayırıq aydan,
Qiyamət qoxusu gəlir dünyadan.

Ən yeni silahlar maraqdan keçir,
Okean dibində sınaqdan keçir,
Məqsəd insanları qırmaqdan keçir.
Təbiət diksinir, qopan fəryaddan,
Qiyamət qoxusu gəlir dünyadan.

Neçə min illərdir yaşayır bəşər,
Hələ də bədguman, hələ də təşər.
Haqlayıb deyəsən onları məhşər,
Ordan olmayacaq geri qayıdan,
Qiyamət qoxusu gəlir dünyadan.

DÜNYAMIZA YAZ GƏLƏNDƏ

Qış yığışar, köç eyləyər,
Günəş göydən zər ələyər.
Quzeylər də güneylənər,
Dünyamıza yaz gələndə.

Qar əriyər buxar olar,
Suya dönüb axar olar.
Hər yan axar-baxar olar,
Dünyamıza yaz gələndə.

Yağış yağar narın- narın,
Bağlar içər, verər barın.
Əsirgəməz torpaq varın,
Dünyamıza yaz gələndə.

Yaşıllıqlar örtər yeri,
Bolluq olar müjdələri,
Köçən quşlar dönər geri,
Dünyamıza yaz gələndə.

Güllər açar, ləçəklənər,
Dağlar, düzlər göyçəklənər.
Çox arzular gerçəklənər,
Dünyamıza yaz gələndə.

Duman qalxar, dağ görünər,
Təzələnər həm ömürlər.
Gecə-gündüz tən bölünər,
Dünyamıza yaz gələndə.

Fəsillərin yazı yaxşı,
Gözəl olur hər naxışı.
Zakirin var öz baxışı,
Dünyamıza yaz gələndə.

YOLLAR

Çoxdur bu dünyanın çətin yolları,
Enişli, yoxuşlu sərt dolayları.
Olmur asanlıqla keçmək onları,
Çıxır qarşımıza əzablı yollar.
Qarışıq, dolaşıq, təzadlı yollar.

Həyatda hamının baxtı gətirmir,
Baxtını axraran vaxtı itirmir.
Hər insan yolunu sona yetirmir,
Mənzilə çatmamış qapanır yollar.
Ömrün kəsiyində qadanır yollar.

İnsanlar doğulur, gəlir dünyaya,
Boylanır ətrafa, baxır səmaya.
Yaşamaq uğrunda qoyur sərmaya,
Axtarır işıqlı, uğurlu yollar.
Səmti düz salınan doğrulu yollar.

İnsan yaman sevir firavanlığı,
Cənnətə döndərir biyabanlığı.
Bu coşqun həvəsi, bu heyranlığı,
"Niyyətdən mənzilə" daşıyır yollar.
Arzudan, istəkdən başlayır yollar.

Hərənin istəyi, təmənnası var,
İstəksiz bir ömrün nə mənası var.
Hədsiz istəyin də öz əmması var,
"Vara" hərisləri azdırır yollar.
Üstündən aşırıb atdırır yollar.

Zakir, halallıqla qazan hər şeyi,
Sən xaric kökləmə çaldığın neyi.
Məsləhət görmürəm haram yeməyi,
Küsüb bir-birindən ayrılar yollar.
Gedişsiz, gəlişsiz, tək qalar yollar.

MƏN SAF SU RƏMZİYƏM...

1.

Mən bir su rəmziyəm dum-duru,billur,
Sular bulanlıq da, çirkli də olur.

Uzağam qarışıq sular soyundan,
Fərqim var okean, dəniz suyundan.

Ömrüm yaşa doldu qəmsiz, ələmsiz
Bulağın gözündən süzüldü təmiz.

Bir yerdə durmadım dolaşmamağa,
Natəmiz yerlərdə bulaşmamağa.

Hamıya bəllidir mənim amalım,
Çoxunu heyrətə salıb bu halım.

Haqqın,ədalətin sorağındayam,
Paklığın, düzlüyün marağındayam.

2.

Mən saf su rəmziyəm, ayna bir göləm,
Günəşdə bərq vurub gərəkdir güləm.

Saflıq azarına tutulmuşam mən
Qəbrədək gedəcək mənim ilə tən.

Mənim taleyimdir duruya baxmaq
Yoxdur qismətimdə bulanıb axmaq.

Üzür sularımda təmiz arzular,
İçimdə nə qədər hələ arzu var.

Yolum düzdən düşüb, təmizdən keçib
Yolumla gələnlər suyumdan içib.

Beləcə yaşayıb dolmuşam yaşa
Ömür karvanımı çəkmişəm başa.

3.

Dağlardan sürətlə axan çayam mən,
Coşğun həyatımla ona tayam mən.

Gücümə güvəndim mən ömrüm boyu,
Gur olur dağlardan axan çay suyu.

Yaşadım həyatda coşqun həvəslə
Səsləndim,danışdım ən təmiz səslə.

Kimsəni incidib küsdürmədim mən
Kimsəyə bəd sifət göstərmədim mən.

Qəddimi əymədim namərd önündə
Heç vaxt yaşamadım rəzil günündə.

Dünya sərvətindən dövlətim, varım
Bir təmiz adımdır, bir də vüqarım.

Mən bir su rəmziyəm, həyat mənbəyi
Suyun təmizlikdir sonu, mənşəyi.

TƏSƏLLİ

Ağrılarım çoxalsa da kürəkdə,
Hələ eşqin odu qalıb ürəkdə.
Çox şükür ki, gəzdirmirlər xərəkdə,
Ayaqdayam,bədən həmin bədəndir.
Gəl soruşma bu həyacan nədəndir.

Elə bilmə itirmişəm yerişi,
Axtarıram çıxış ilə girişi.
Hələ özüm həll edirəm hər işi,
Tanrı daim bizə kömək edəndir.
Gəl soruşma bu həyacan nədəndir.

Yaş ötsə də hələ həddi aşmayıb,
Könlüm ən son nəğmələrin qoşmayıb.
Ömrüm qopub məhvərindən daşmayıb,
Ümidlərim harayıma yetəndir.
Gəl soruşma bu həyacan nədəndir.

Zakir dünya geniş, açıq pəncərə,
Çox baxsan da sanma yolun döndərə.
Vermə nahaq günlərini kədərə,
Bu dünyaya gələn bir gün gedəndir.
Gəl soruşma bu həyəcan nədəndir.

SÖZ YERİNƏ DÜŞƏNDƏ

İlahi bir güc alar,
Ürəyə nur tək dolar,
Yaddaşlarda kök salar,
Əbədiyaşar qalar
Söz yerinə düşəndə.

Ədavəti yatırar,
Məhəbbəti artırar,
Namərdləri asdırar,
Mərdi kama çatdırar
Söz yerinə düşəndə.

Məclisə gələr qonaq,
Haqsıza olar qınaq.
Paxılı edər qaynaq
Olar əlbət şən, oynaq
Söz yerinə düşəndə.

Zakir, sözdən söz alar,
Hər kəs ona göz olar,
Söyləməyə üz olar
Haqdangəlmə, düz olar
Söz yerinə düşəndə.

SÖZ

Söz var eşidəndə avazı xoşdur,
Söz var könüllərə dəyən bir daşdır.
Söz var mənasızdır, tutumu boşdur,
Söz də var, hikmətlə bəzər cahanı.
Başıuca eylər daim insanı.

Söz var, sahibini verər güdaza,
Söz var zərər vurar dilə, boğaza.
Söz var çox böyükdür, sığmaz ağıza,
Söz də var itirər dini, imanı,
Haram, əyri yola salar insanı.

Söz var sevgi dolu nəğmələr deyər,
Söz var nəğmələrin novrağın əyər.
Söz var gəvəzədir, verilməz dəyər
Söz də var ram edər qorxunc ilanı,
Haqqa, ədalətə səslər insanı.

Söz var dildən qaçar, ziyan gətirər,
Söz var toxumları tikan bitirər.
Söz var nüfuzunu salıb itirər,
Söz də var hər yerdə qurar divanı,
Qoruyar haqsızdan haqlı insanı.

Söz var boş-boşuna söyləmək olmaz,
Söz var kimə desən yadında qalmaz.
Söz var kimsə onu yadına salmaz,
Söz də var milyonlar olar heyranı,
Nurlu bir aləmə salar insanı.

Söz var qılınc kimi kəsib doğrayar,
Söz var çoxluğundan başlar ağrıyar.

Söz var təsirindən hamı ağlayar,
Söz də var hamıya verər inamı,
Peşiman eyləməz heç vaxt insanı.

Söz var nitqimizi gözəlləşdirər,
Söz var dilimizi qəlizləşdirər.
Söz var aramızı sərinləşdirər,
Söz də var yaradar hər cür imkanı,
Sevər, əzizləyər insan insanı.

Söz var şair onu düzər yan-yana,
Söz var şairləri salar zindana.
Söz var dünyamızı çuğlayar qana,
Söz də var dillərdə gəzər dünyanı,
"Saleh" söz sahibi edər insanı.

MƏKTƏBİM

(Məzunu olduğum Şabran (keçmiş Dəvəçi) şəhər M.Nəzirov adına tam orta məktəbin 95 illik yubileyinə həsr edilir)

Sən zamanın tələbindən yarandın,
Elm, təhsil dünyasında yer aldın,
Həqiqətin aynasında darandın,
Ömrümüzə işıq saçdın məktəbim!
Qarşımızda yollar açdın məktəbim!

Mənbəyisən dərin əqlin, kamalın,
Özəyidir elmin arzu, amalın,
Şagirdlərin gözəl hüsnün, camalın,
Verdin bizə zəngin bilik məktəbim!
Mənim doğma on bir illik məktəbim!

Çox illəri sakin olduq evində,
Dərs öyrəndik, təhsil aldıq evində,
Neçə elmə zəfər çaldıq evində,
Qanad açıb pərvaz etdik məktəbim!
Uçub özgə səmtə getdik məktəbim!

Qaranlıqda mayak oldun yolumda,
Çətinlikdə gücə döndün qolumda.
Büdrəmədim ən dolaşıq halımda.
Hər an duydum köməyini məktəıbim!
Unutmadım əməyini məktəbim!

Sən uğurla yola saldın illəri,
Təhsilinlə məmnun etdin elləri,
Becərdirik sən əkdiyin gülləri,
Bağımızın bağbanısan məktəbim!
Elmimizin loğmanısan məktəbim!

Qabaqdadır hələ illər, fəsillər,
Elm alacaq səndən neçə nəsillər,
Ötüşəcək yəqin bir-bir əsrlər,
Sən bir tarix olacaqsan məktəbim!
Yaddaşlarda qalacaqsan məktəbim!

Məzunların axtarıldı soraqla,
Ad gününü qeyd etdilər maraqla.
Özün çevir tarixini, varaqla,
Şan-şöhrətli, iftixarlı məktəbim!
Başı qarlı, dağ vüqarlı məktəbim!

İllər salıb lövbərini yaşına,
Tarix yazıb kərpicinə, daşına.
Çatmamısan hələ mənzil başına
Doxsan beşi vurdun başa məktəbim!
İndən belə min il yaşa məktəbim.

BU MƏKTƏB

(Şabran şəhər Azərbaycanın Milli Qəhrəmanı Roman Yuzifov adına 2 №-li texniki fənnlər təmayüllü məktəb-liseyin 45-illik yubileyinə itfah olunur)

Təhsilin təməli, elmin mənşəyi,
Neçə müəllimin gərgin əməyi.
Hamının keçdiyi həyat mənbəyi,
Ömür karvanına yoldur bu məktəb.
Uğurlu yollarla boldur bu məktəb.

Səsləyib təhsilə yaxın elləri,
Toplayıb bir yerə neçə dilləri.
"Birdən onbirə" dək sayıb illəri,
Hər elmi öyrədib bizə bu məktəb.
Verib qiymətini sözə bu məktəb.

Nə qədər müəllim burda iz salıb,
Bu evdə minlərlə şagird dərs alıb.
İlləri adlayıb, sanma qocalıb,
Dərsi altı yaşdan keçib bu məktəb.
Daim gənclik suyun içib bu məktəb.

Fərqi yox Vətənin hansı yerində,
Ən ucqar kəndində, ya şəhərində.
Barlı bir ağacdır, kökü dərində,
Elimdə, obamda bitib bu məktəb.
Uca məqamlara yetib bu məktəb.

Burada hərənin adı, soyadı,
Qalxır "sinif-sinif", artır savadı.
Hamıya pay düşür, olur sovqatı,
Elmi təmannasız verir bu məktəb.
Vaxtını hədərə vermir bu məktəb.

Hələ ki, cavandır, qırxbeşdir yaşı,
Qopub tökülməyib kərpici, daşı.
Yüksəkdir təhsildə, ucadır başı,
Yaranıb ən xoşbəxt gündə bu məktəb.
Olacaq həmişə öndə bu məktəb.

MƏZUN

Bitib həyatının məktəb illəri,
Təhsil karvanını apar irəli.
Sahib ol hər elmə, öyrən dilləri,
Qarşıda hələ çox yollar var, uzun.
Vətənin arxası, dayağı məzun.

Bu məktəb təhsilin orta pilləsi,
Elmin var zirvəsi, uca qülləsi.
Dindirsən ucadan gələcək səsi,
Bu səslə danışıb, güləcək arzun.
Elin ümidgahı, köməyi məzun.

Yolunu gözləyir elm ocaqları,
Elmsiz dolaşma künc-bucaqları.
Elmlə fəth etsən uca dağları,
Rahat, halal olar həmişə ruzun.
Xalqının bu günü, sabahı məzun.

Çətindir həyatda gərəksiz olmaq,
Yolunu elmdən kənara salmaq.
Hünərsiz, zəhmətsiz olmur ucalmaq.
Qiyməti fərqlidir fındıqla qozun.
İşıqlı yolların yolçusu məzun.

Xoşbəxtlik günəşi doğar üzündə,
Elmdən bir soraq olsa sözündə.
Qorxu yaratmasın zəhmət gözündə,
Düşərsən hörmətdən, enər nüfuzun.
Uca zirvələrin fatehi məzun.

Xalqın ümid yeri özü də sənsən,
Elin uzaq görən gözü də sənsən.
Bu günün, sabahın sözü də sənsən,
Sözündə nur olsa sönməz ulduzun.
Vətənin layiqli övladı məzun.

ÖMÜR NƏĞMƏSİ

Bir nəğmə köklənib mənim içimdə,
Notları rəngarəng, səlis biçimdə.

Adını qoymuşam ömür nəgməsi,
Ahəngdir onunla könlümün səsi.

Ömür dastanından doğan bu nəğmə,
Gah zilə yüksəlir, gah enir bəmə.

Mənəm bəstəçisi, həm ifaçısı,
Mənimdir şirini, şiti, acısı.

Haqqdan, ədalətdən yoğurdum onu,
Eşqdən, məhəbbətdən doğurdum onu.

Qalxdı pərdə-pərdə, danışdı söz-söz,
Yaşamaq eşqimi közərtdi köz-köz.

Yol aldım hikmətli mənalarından,
Yan keçdim həyatın bəlalarından.

Mənə xoş avazlı günlər yaşatdı,
Bəzən həzin-həzin qəm də daşıtdı.

Bu nəğmə canımdan, qanımdan gəlir,
Ən kövrək, ən həzin anımdan gəlir.

Həyatım uzunu onu dinlədim,
Ömrümü, günümü onsuz bilmədim.

Həyatın mənası zövqü nəğmədir,
Nəğməsiz bir həyat, ömür heç nədir.

Oxuyub doymuram zümzüməsindən,
Könlüm vəcdə gəlir nəğmə səsindən.

Şən oynaq ritmli, lirik nəğmə də,
Kədərli, hüznlü, perik nəğmə də,

İnsanın yaşanan həyat tərzidir.
Həyatın insana sözü, ərzidir.

Mən hələ həyatdan kam almamışam,
Nəğməni oxuyub yorulmamışam.

Bəlkə də bu nəğmə yaşadır məni,
Arabir kövrəldir, yumşaldır məni.

Fəqət həyatımın sonu yetərsə,
Ömrümün nəğməsi bir gün bitərsə.

Bu nəğmə ruhuma köçər içimdə.
Özgə bir aləmdə, özgə biçimdə.

MƏN ÇAĞLAYAN BİR BULAĞAM

Mən çağlayan, bir tükənməz bulağam,
Suyum safdır, bulanmaqdan uzağam.

Yol almışam qarlı dağlar başından,
Süzülmüşəm qayasından, daşından.

Şırım-şırım yer altından axmışam,
Sərt layları yara-yara qalxmışam.

Göz açmışam hər tərəfdən dünyaya,
Boylanmışam mavi gözlü səmaya.

Muncuq- muncuq inci axıb quyumdan,
İrmaq-irmaq söz yaranıb suyumdan.

Bir təbiət gözəliyəm, qənirsiz,
Məndən ötüb, keçmək olmaz hənirsiz.

Təbiətin hər yerində mən varam,
İlin hansı fəsli olsa çağlaram.

Sevdirmişəm insanlara özümü,
Udum-udum içirtmişəm sözümü.

Mənim saflıq, təmizlikdir marağım,
Oba-oba, el-el gəzir sorağım.

Təmizliyin aynasıdır sularım,
Sularımın axarıdır yollarım.

Yollar mənim öz içimdən uzanır,
Aləm məni ruha məlhəm su sanır.

Doğulmuşam təbiətin qoynunda,
Dünyamızın ən gözəl, xoş anında.

Hər an yeni həyat qaynar içimdə,
Yaşayıram mən bu gözəl biçimdə.

Tək deyiləm, nə çox sulu bulaqlar,
Neçə adda, neçə dadda bulaq var.

Çox fərqliyəm bu bulaqlar yanında,
Nələr yoxdur mənim bulaq canımda.

Misra-misra söz yaranır içimdən,
Nəğmə qalxır sularımın səsindən.

Gözüm heç vaxt tutulmayır baxmaqdan,
Yorulmuram gecə-gündüz axmaqdan.

Mən çağlayan, bir nəğməkar bulağam,
Sakit, səssiz sızılmaqdan uzağam.

DOSTUMA NƏSİHƏT

1

Həyatın yolları ömürdən keçir,
Hərə öz yolunu arayıb seçir.

Dünyanın düzəni, qaydasıdır bu,
İnsana zərəri, faydasıdır bu.

Hər insan dünyaya gəlir və gedir,
Hamının ömründə bu hal dövr edir.

Çox olur həyatda yıxılan, qalxan,
Ucalır qorxmazlar, büdrəyir qorxan.

Dünyaya etibar etməyə dəyməz,
Dünyadan köçənlər qayıdıb gəlməz.

Odur ki, yaşayaq ömrü şərəflə,
Yol gedək xeyirli, ünlü tərəflə.

İz salaq, yol qoyaq gələnlər üçün,
Yaxşının qədrini bilənlər üçün.

Sağlıqda xoş olsa sanılır insan.
Ölərkən hörmətlə anılır insan.

2

Sənə yaşamağın açım sirrini,
Bu sirli aləmdə tap öz yerini.

Uzaq dur dünyanın "oyun"larından,
Agah ol həyatın qanunlarından.

Tərpən ehtiyatla, təmkinlə davran,
Səni əzablara salmasın dövran.

Məramın, amalın, imanın olsun,
Məqama yetməyə imkanın olsun.

Ülvi duyğulara tuşlama oxlar,
Qayğısız ömrünə gətirmə ahlar.

Çoxdur bu dünyanın düzü, əyrisi,
Halalı, haramı, acgöz hərisi.

Dost olma üzünə gülən hər kəslə,
Özünə həmahəng olanı səslə.

Yaşama ömrünü tənha, gərəksiz,
Qurduğun dam uçar, durmaz dirəksiz.

Sevmək, dostluq etmək hər an imkandır,
Dar gündə insanın dostu insandır.

Canı dost oduna yaxasan gərək,
Dostun sınağından çıxasan gərək.

Nə fərqi alimsən, ya ki, sənətkar,
Fərqlər nadanlığa deyil səbəbkar.

Cahillik,nadanlıq savada baxmır,
Bu bəla bizləri rahat buraxmır.

Bəzən alimlər də, savadlılar da,
Zalımı Tanrı tək görür yuxarda.

3

Ədalət yolunun yolçusu olsan,
Haqqın karvanında sarvan olarsan.

Savadsız olmağın eyib sayılmaz,
Saxtakar alimin elmi düz olmaz.

Ağlının gücünə güvən həmişə,
Ağıllı olanlar dözür gərdişə.

Atma qədəmini çirkin yollara,
Tay olma bədəməl, bəd gümanlara.

Dünyanın varına, malına uyma,
Sənin olmayanı yaxına qoyma.

Tutmasın gözünü qızılla almaz,
Kimsəyə qalmayan sənə də qalmaz.

Sənə yaşamağın açdım sirrini,
Bu sirrli aləmdə tap öz yerini.

ANAMLA XƏYALİ SÖHBƏT

Nə fərqi, yaşadın əlli, ya doxsan,
Sən artıq dünyada, həyatda yoxsan.
Verərəm ömrümü dirilib qalxsan,
Yenidən yanıma qayıtsan ana!
Yatmış duyğuları ayıltsan ana!

Məni öz bətnində bərqərar etdin,
Gətirdin dünyaya, arzuna yetdin.
Bir gün də sən məni tərk edib getdin,
Həyatla döyüşdə tək qoydun ana!
Nədənsə ömürdən tez doydun ana!

Əbədi deyilmiş vəfasız həyat,
Tərk edir insanı, gedirmiş heyhat.
Sən mənə borcunu ödəyib on qat,
Özünə əzablar ummusan ana!
Gözünü əbədi yummusan ana!

Can verib, qan verib, yaşatdın məni,
Öyündün mənimlə, oxşatdın məni.
Uğurlu, düz yola qurşatdın məni,
Sənin tərbiyəndir məfkurəm ana!
Əfsus, sənsizliyə məhkumam ana!

Mən səni müqəddəs varlıq tanırdım,
Ha yana getsəydim səni anırdım.
Ayağın altını cənnət sanırdım,
Fəqət, bu təbimdən sovuşdun ana!
Əbədi cənnətə qovuşdun ana!

Qəbrinin üstündə bitən ot oldum,
Bəzən bulud kimi boşalıb doldum.
Doyunca ağladım, xəyala daldım,
Beləcə ruhunla danışdım ana!
Səni qaytarmağa çalışdım ana!

Böyütdün Zakiri, yetirdin başa,
Qoymadın arzusu toxunsun daşa.
Sənin bu zəhmətin getməyib boşa,
Artıq hər arzuma yetmişəm ana!
Yaşımda kök atır "yetmişim", ana!

XƏSİSLİK

Xəsis acgöz, həris olar,
Səxavətdən geri qalar.
Doymaz gözü tamahından,
Əskik verər, artıq alar.

Yığar pulu, artar varı,
Olmaz onun dostu, yarı.
Yeməz malın şirin-şirin,
Şorla keçər hər naharı.

O anadan doğulandan,
Xislətinə hopub qandan.
Ona görə pul görəndə,
Fəda gedir, keçir candan.

"Çəkən" deyil, "içən" deyil,
Dosta qapı açan deyil.
Biri ondan borc istəsə,
Qəpiyindən keçən deyil.

Gecə-gündüz ahu-zarda,
Görən olmaz onu barda.
Xəsisliyi ucbatından,
Atıb gedər onu yar da.

Pul var ikən, yoxdur dəyər,
Yamaq-yırtıq şalvar geyər.
Bu xislətdə, bu görkəmdə
Kim verəcək ona dəyər?

ŞƏRAB

Dərdə dərman sayır şərabı dostum,
Bəyənmir "Barjom"i, "Sirab"ı dostum,
İçəndə çaş vurur, mizrabı dostum,
O hansı dərddir ki, dərmandır şərab?
Vaxtsız ölümlərə fərmandır şərab.

O çox ailələr, evlər dağıdıb,
Əvvəl gülənləri sonra ağladıb,
Ağlını azdırıb, yolun bağladıb.
Həyatda ən qısa dövrandır şərab
Vaxtsız ölümlərə fərmandır şərab.

Şərab dəryasında üzənlər batır,
Özünü ölümün cənginə atır,
Əfsus belələri nədənsə artır,
Anlamır zəhərli ilandır şərab
Vaxtsız ölümlərə fərmandır şərab.

Deyirlər: Birinci badə qaydadır,
Guya ki, ikinci cana faydadır,
Üç-dörddə bilinmir kim nə haydadır,
Ömürdə fəlakət, böhrandır şərab
Vaxtsız ölümlərə fərmandır şərab.

Qədər bilməyəndə, həddi aşanda,
Beyin dumanlanıb, ağıl çaşanda,
Ayaq büdrəyəndə, dil dolaşanda,
Deməyin bu dərdə dərmandır şərab
Vaxtsız ölümlərə fərmandır şərab.

TƏBİƏTƏ SƏYAHƏT

1

Ömür vəfa qıldı, verdi səlahət,
Təbiət qoynuna etdim səyahət.

Gəzdim oymaq-oymaq, bir-bir görüşdüm.
Təbii gözəllər eşqinə düşdüm.

Açıldı qarşımda geniş mənzərə,
Dil açdı ormanlar, dindi dağ-dərə.

Güldü gözlərimdə laləli düzlər,
Lalə yanaqlara vuruldu gözlər.

Tapdım gözəlliyi təbiətdə mən,
Oldum gözəlliyə xoş niyyətdə mən.

Döşəndi qarşımda yaşıl çəmənlər,
Günəşdə nurlanıb şehdə çimənlər.

2

Çıxdım sanki əlvan xalı üstünə,
Çiçəklər ətrini sərdi üstümə.

Doyunca zövq aldım mən bu təmasdan,
Oxşadı ruhumu gözəl bir ostan.

Dolaşdım dağların yamaclarında,
Dinlədim səsini turacların da.

Könlümü ram etdi dağın zirvəsi,
Yarandı zirvəyə qalxmaq həvəsi.

Dırmaşdım sıldırım qayalıqlara,
Boylandım qayadan ovalıqlara.

Hayana baxdımsa gözəl göründü,
Təbiət yüz rəngli dona büründü.

Yam-yaşıl ormanlar, çılpaq qayalar,
Gözümdə silinməz izlər qoydular.

3

Ana təbiətdə nələri gördüm,
Heyranı olduğum yerləri gördüm.

Keçdim şəlaləli dağ çaylarından,
Yol aldım dağların dolaylarından.

Rast oldum suları buz bulaqlara,
Baxdım başı qarlı, buzlu dağlara.

Çoxdur təbiətdə sonalı göllər,
Düzlərdə, dağlarda suları göylər.

Mavi dənizlərə axan çayların,
Saxlaya bilmədim yadda sayların.

Hələ çox sirrini aça bilmədim,
Sehrindən yayınıb qaça bilmədim.

4

Təbiət bizlərə sərvətlər verib,
Geniş ərazilər,sərhədlər verib.

Daim düşündürür bu hikmət məni,
Sirli, müəmmalı bu nemət məni.

Sevdim təbiətdə özəllikləri,
Eşqinə düşdüyüm gözəllikləri.

Təbiət nə içmək, nə də yeməkdir,
Təbiət dünyanın özü deməkdir.

Bu böyük neməti qoruyaq gərək,
Yaşayaq qoynunda, şən ömür sürək.

XƏYALLAR ALƏMİNDƏ

1

Uçurtdu göylərə məni xəyallar,
Yaşatdı göylərdə qəribə anlar.

Çəkib yer üzündən qopardı məni,
Əngin səmalara apardı məni.

Xəyal ruhsuz qoydu yerdə cismimi,
Göylərdə bir mələk dedi ismimi.

Gəzdirdi özüylə əngəllikləri,
Gördüm göylərdəki dərinlikləri.

Qoydu qabağıma göyün varını,
Verdi səmaların ixtiyarını.

Qalxdım buludlardan aydınlıqlara,
Sanki, dırmaşırdım uca dağlara.

Fəqət nə dağ vardı , nə qayalıqlar,
Nə ucsuz düzənlər, nə ovalıqlar.

2

Hər yan torpaqsızlıq, susuzluq idi,
Nəhəng bir tənhalıq, sonsuzluq idi.

Cəhd etdim günəşə yaxınlaşmağa,
Gecələr ay ilə xosunlaşmağa.

Göz vurub gülürdü ulduzlar mənə,
Səma gözəlləri, o qızlar mənə.

Çalışdım birinə salım meylimi,
Yanar yanağına çəkim əlimi.

Əfsus, yetişmədim mən bu istəyə,
Səmada bərq vuran o gur dəstəyə.

3

Mən göyə qalxdıqca günəş də qalxdı,
Ay da öz yerindən üzümə baxdı.

Məndən uzaq idi günəş də ,ay da,
Mənə ulduzlardan yox idi fayda.

Xəyallar çətinə salmışdı məni,
Göylərdə yox idi insan məskəni.

Səmanı bəzəyən bu kəhkəşanlar,
O aylı, günəşli, ulduzlu anlar.

Ruhumu get-gedə darıxdırırdı,
Bəzən də çaşdırıb, karıxdırırdı.

Rastıma çıxmadı güman etdiyim,
Ardınca xəyalən uçub getdiyim.

Sonsuz fəzalarda dolaşdı ruhum,
Təkcə öz- özüylə danışdı ruhum.

Tapmadım yerdəki gözəllikləri,
İnsana xas olan özəllikləri.

4

Nə qədər çağırdım mən ulduzları,
Görüşə gəlmədi o göy qızları.

Günəş kainata səpir incilər,
Ay ondan şövq alıb, yanır gecələr.

İnsana nə dəxli bütün bunların,
Göylərsə məkanı əyər onların.

5

Ayrıldım bu səma övladlarından,
Endim xəyalların qanadlarından.

Son qoydum, nəhayət bu boş xülyama,
Qayıtdım yerdəki cismi-dünyama.

QOCALIQ

Qocalıq düşgünlük, miskinlik deyil,
O çox hörmət ilə aramla gəlir.
Susub dinməməyi küskünlük deyil,
Keçdiyi yollara baxıb dincəlir.

Hamının ömründə bir naxışdır o,
Gəncliyi pərişan qoyur həmişə.
Arxaya boylanan bir baxışdır o,
Baxır içimizdən qopan keçmişə.

Azad quşa dönüb, gəzir dünyanı,
Yoluxur hamıya xəstəlik kimi.
Bu dərd min illərdir əzir dünyanı,
Gəlmir xoşumuza bəzən görkəmi.

Qocalıq müdriklik, kamillik çağı,
Ömrün başı qarlı dağlıq dövrüdür.
Bütün fəsillərin bar verən bağı,
Nəsildən nəsilə qalan körpüdür.

Çapıb köhlənini, ötüb illəri,
Rast olub acıya, düşüb şirinə.
Müdrik kəlamlarla öpüb dilləri,
Dönüb şairlərin gözəl şerinə.

İnsan qocaldıqca ağır tərpənər,
Gənclər hörmət edib, baş əyər ona.
Yenicə dil açan məsum körpələr,
Babamsan, nənəmsən söyləyər ona.

Əfsus qocalığı hörmətdən salan,
Özünə qapanmış qocalar da var.
Övlad qayğısından kənarda qalan,
Özgəyə tapınmış qocalar da var.

Gəncliyi mənasız vurmayın başa,
Meşşan təbiətdə yanar qocalıq.
Sağlam həyatınız dəyməsin daşa,
Yaman kövrək olur, sınar qocalıq.

QƏLƏMİM

Onunla ilk dəfə tanış olanda,
Yazı yazmaq üçün ələ alanda.
Mənim yeddi yaşım var idi onda,
Əlimə yatmırdı hələ qələmim.
Gəldi zaman-zaman dilə qələmim.

Çox oldu əlimdə yolun azmağı,
Dəftəri korlayıb, vərəq cızmağı.
Axır ki, öyrəndim yazı yazmağı,
Dönüb öz yoluyla getdi qələmim.
Könlüm istəyəni etdi qələmim.

Yazdırdı hərflərin ilkin "a"-sını,
Öyrətdi dilimin əlifbasını.
Göstərdi hər zaman öz vəfasını,
Məni ehkamına saldı qələmim.
Həmişə əlimdə oldu qələmim.

Bir yerdə bitirdik orta məktəbi,
Ali təhsil almaq oldu mətləbi.
Tanrım təmannasız göndərdi təbi,
Yazdı hər marağa dair qələmim.
Şagird, həm tələbə, şair qələmim.

Oldum bir peşəkar qələm sahibi,
Düz yazıb, düz sayan “haqq” mühasibi.
Olmadım şahsevən, saray naibi,
Hamının üzünə güldü qələmim.
Haqqını düz sayıb böldü qələmim.

Yaşayır mənimlə yeddi yaşımdan,
Mənə çox yaxındır yar-yoldaşımdan.
Fikri-düşüncəmi alıb başımdan,
Çevirir kitaba, sözə qələmim.
Oxudur minlərlə gözə qələmim.

Ayırdı yaş məni mühasibatdan,
Çıxdım təqaüdə bu hasilatdan.
Fəqət çıxarmadım seiri yaddan,
Bu gün əlimdədir yenə qələmim.
Zakirdən çətin ki, dönə qələmim.

ÇOX YAŞAMAQ İSTƏYİRİK

Ömür tanrı payımızdır,
İnsanlara bəxş edilib.
Qismətimiz nə qədərsə,
Alnımıza nəqş edilib.

Bu bir tale yazısıdır,
Misra-misra yaşayırıq.
Acısını, şirinini
Çiynimizdə daşıyırıq.

Kök atırıq ağac kimi,
Budaq-budaq ucalırıq.
Budaqların arasında,
Kötükləşib qocalırıq.

Günlər aydan-aya keçir,
İllər ötür ömrümüzdən.
Yaradanın işinə bax,
Geri alır ömrü bizdən.

Həyat sosuz, əbədidir,
Davam edir bizli, bizsiz.
Mənasını anlamadan,
Yaşayırıq bəzən izsiz.

Bəzən olur hərislikdən
Həddi aşmaq istəyirik.
Ölüm haqdır deyə-deyə,
Çox yaşamaq istəyirik.

TANRIDAN İSTƏK

Qocalığı calamısan yaxama,
Çox əcayib şeylər girir yuxuma,
Tanrım, rəhm et, həyatıma toxunma,
Səslənirəm artıq başqa avazda
Mənə möhlət əta elə bir az da.

Mən dünyanı sevə-sevə yaşadım,
Ağır, yüngül, hər yükünü daşıdım,
Hələ durur neçə-neçə yaşıdım,
Sökülməyib altımdakı palaz da
Mənə möhlət əta elə bir az da.

Bu qocalıq yaman düşüb izimə,
Taqətsizlik meylin salıb dizimə,
Bel bükülüb, qırış qonub üzümə,
Yalvarıram sənə hər gün namazda
Mənə möhlət əta elə bir az da.

Ömrüm boyu öz yolumla getmişəm,
Həyatımda nə lazımsa etmişəm,
Elə bilmə hər arzuma yetmişəm,
Mizrabımın gözü qalıb o sazda
Mənə möhlət əta elə bir az da.

Həsrət dolu illərimi bitirdim,
Vətənimi, torpağımı itirdim,
Bəlkə bir gün gedib tapıb gətirdim,
Gərək onda körpü olum "Araz"da
Mənə möhlət əta elə bir az da.

Çoxlu qohum-əqrəbalı, köklüyəm,
Boynumdadır minnətləri, yüklüyəm,
Mən nədənsə dost-tanışa ərkliyəm,
Yubileyim olmalıdır bu yazda
Mənə möhlət əta elə bir az da.

III BÖLMƏ

MƏHƏBBƏT TƏRANƏLƏRİ

Sevgi dolu bir dünyadır həyatım,
Haqdan doğur nəğmələrim, bayatım.
Mən sevgisiz necə qalxım, boy atım?
Ağır yükdür, çox çətindir daşımaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

MƏHƏBBƏT TƏRANƏLƏRİ

Ülvi məhəbbətdir həyatın tacı
İnsan daim olur onun möhtacı.

Ötəri duyğular yaşatmaz onu,
Bil ki, məhəbbətsiz yox ömrün sonu.

İnsanla doğulur, gəlir dünyaya,
Artır damla-damla dönür dəryaya.

Onunla şirindir yaşamaq dadı,
Onsuz yada düşmür insanın adı.

Dolaşır ruh kimi canlı aləmi,
Silir ömürlərdən dərdi, ələmi.

Yol gedir, bəşərin hər övladıyla,
Dolur ürəklərə sevgi adıyla.

Gah dönüb eşq olur, gah dəli istək,
Gah düşür hörmətdən ötəti hiss tək.

Hər hansı bir adla yazdırsa irsin,
Adı məhəbbətdir bu ülvi hissin.

Məhəbbət Tanrının sirri, hikməti,
İnsana əvəzsiz dünya neməti.

Bütün canlılara olsa da məhrəm,
Yalnız insan bilir nədir bu məlhəm.

Sevib-sevilməyə sövq edər bizi,
Hamının qəlbinə salar bu izi.

Fəqət çox olsa da odu, alovu,
Salmaz aramıza nifaqı, lovu.

Nadanlar axtarır onu özündə,
Aqillər yaşadır müdrik sözündə.

İnsanın ömrüylə bitməyir rolu,
Əbədi dünyayla bağlıdır yolu.

Məhəbbət olmasa insan doğulmaz,
Məhəbbət olmasa həyat da olmaz.

İSTƏMİRƏM MƏHƏBBƏTSİZ YAŞAMAQ

Sevgi dolu bir dünyadır həyatım,
Haqdan doğur nəğmələrim, bayatım.
Mən sevgisiz necə qalxım, boy atım?
Ağır yükdür, çox çətindir daşımaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

Məhəbbətin yolları var gözümdə,
Keçənlərin izi qalar gözümdə.
Mənə yaxın doğma olan gözümdə
Nəsibimdir daim sevib oxşamaq
İstəmirəm məhəbbətsiz yaşamaq.

Ömür mənə yaradandan pay gəlib,
Tanrı eşqi öz payına tay gəlib.
Həyatıma il yazmağa ay gəlib,
Nəyə lazım ömürləri daşlamaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

Yaranışın özəyidir məhəbbət,
İnsanların bəzəyidir məhəbbət.
Şairlərin söz meyidir məhəbbət,
Qəlbdən silib olmur onu boşlamaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

SƏNƏ YARIM SÖYLƏDİM Kİ,..

Sənə yarım söylədim ki,
Sənin yarın ola bilim.
Keçim ömür yollarından,
Həyatında qala bilim.

Sənə yarım söylədim ki,
Arzuların çiçəklənsin.
Yel vurmasın çiçəkləri,
Hər istəyin gerçəklənsin.

Sənə yarım söylədim ki,
Əhdimizə and içəsən.
Gözəl, məsum sevgimizə,
Sədaqətdən don biçəsən.

Sənə yarım söylədim ki,
Qaçmayasan qınağımdan,
Sınağımdan keçə-keçə,
Nurlanasan çırağımdan.

Sənə yarım söylədim ki,
Öz yarından yarıyasan.
Günüm keçə sənin ilə,
Mənlə birgə qarıyasan.

Sənə yarım söylədim ki,
Həsrətimi bitirəsən.
Mən Zakirə könül verib,
Vüsalına yetirəsən.

OLMUR

Ömrün çiçəklənən gənclik çağında,
Arzular bar verir könül bağında.
Həyatın bu coşqun çal- çağırında,
Sevgi yollarından keçməmək olmur.
Eşqin badəsini içməmək olmur.

Minib köhlənini çapasan gərək,
Axtarıb eşqini tapasan gərək.
Sevgisiz yollardan sapasan gərək,
Məhəbbət duyğusuz, istəksiz olmur.
Sevənlər amalsız, məsləksiz olmur.

Danışma dərdini qəlbi dağlara,
Aparma kədəri o yaylaqlara.
Axıtma göz yaşı buz bulaqlara,
Gəncliyi ələmlə yaşamaq olmur.
Yükü çox ağırdır, daşımaq olmur.

Gözəldir gənclərin sevgi dünyası,
Haqdan yoğrulubdur, pakdır mayası.
Çətindir aşiqin eşqdən doyması,
Özünü odlara salmasa olmur.
Yar yarın qadasın almasa olmur.

Ötən günlərini hədərə vermə,
Ömrünü şad yaşa, kədərə vermə.
Vaxtını qəzavü-qədərə vermə,
Cavanlıq köç edir, saxlamaq olmur.
Dalınca kövrəlib, ağlamaq olmur.

GÖZƏLLƏR

Daranar, bəzənər, çıxar qarşına,
Ağlını başından alar gözəllər.
Ovlayar könlünü, baxmaz yaşına,
Ömrünə, gününə dolar gözəllər.

Tər-təmiz gül kimi, əsilli, soylu,
Bəstəboy, incəbel, surahi boylu,
Qoymaz etinasız ötəsən yolu,
Könlünə yatımlı olar gözəllər.

Dünyanı gözəllik xilas eyləyər,
Çılqın köhlənləri tutub əyləyər.
Eşqdən, məhəbbətdən dastan söyləyər,
Sevgi nəğməsini çalar gözəllər.

Dindirsən dillənər nəzakət ilə,
Tikanlı kəlmələr gətirməz dilə.
Dönərlər pardaqlı, ətirli gülə,
Pozulsa novrağı solar gözəllər.

Keçsən düzlərindən, yoxuşlarından,
Gözlərin qamaşar naxışlarından.
Canına od düşər baxışlarından,
Başını bəlaya salar gözəllər.

Zakir, öz yolunla farağat yeri,
Gedib gözəlliyin, qayıtmaz geri.
Sənin gözəllərə yazdığın şeiri,
Oxuyub xəyala dalar gözəllər.

İTMİŞ MƏHƏBBƏTİM

Axtarıram, tapmayıram,
Yoxa çıxıb məhəbbətim.
Solan güllər toplayıram,
Sönüb odum, hərarətim.

Sevgi dolu bir dünyamı,
Eşq payımı itirmişəm.
Ötüb bəlkə eşq əyyamı,
- Ömrü sona yetirmişəm?

Elə bil göyə çəkilib,
Olmayıbmış heç əzəldən.
Gözlərim yola dikilib,
Salıb yollar məni əldən.

Neçə ayım, ilim ötdü,
Hay vermədi harayıma.
Qəm dərdimi çox böyütdü,
Həsrət çəkdi hər ayıma.

Qoruyaydım gərək onu,
Mənə dönük çıxmayaydı.
Hələ bəlkə deyil sonu...
Kaş qarşıma tez çıxaydı.

Quş tək qanad açıb getdi,
Məndən çox,çox uzaqlara.
Ceyran kimi qaçıb getdi,
Bəs mən onsuz gedim hara?

Zakir, yoldan nahaq sapdın,
Başa vurma bu söhbəti.
Axtar yenə, bəlkə tapdın,
İtirdiyin məhəbbəti.

APARIN MƏNİ

Dinləyin sözümü ey əzizlərim !
Sizsiniz həyatda qalan izlərim.
Kəsilir işıqdan, sönür gözlərim,
Ölüm yatagından qoparın məni.
Təbiət qoynuna aparın məni.

Boylanım son dəfə, baxım dağlara,
Yaşıl ormanlara, barlı bağlara.
Qayıdım xəyalən ötən çağlara,
Azım dağ yolunda axtarın məni.
Təbiət qoynuna aparın məni.

Mən necə zövq alım güldən, çiçəkdən,
Bulaq başındakı gözəl, göyçəkdən?
Görürsüz, uzağam mən bu gerçəkdən,
Nə olar, həsrətdən qurtarın məni.
Təbiət qoynuna aparın məni.

Təngiyir nəfəsim, darıxır könlüm,
Şad günüm qalmayıb danışım, gülüm.
Ömür yollarımda dolaşır ölüm,
Gənclik illərimə qaytarın məni.
Təbiət qoynuna aparın məni.

Olmaq istəyirəm son anlarımda,
Gəzib-dolaşdığım kənd yollarında.
Bu gözəl yurdumun ormanlarında,
Ceyran, cüyür bilib otarın məni.
Təbiət qoynuna aparın məni.

Dünyanın malında qalmayıb gözüm,
Dünyaya töhfələr vermişəm özüm.
Hələ tükənməyib, qalıb son sözüm,
Cücərdin sözümü,artırın məni,
Təbiət qoynuna aparın məni.

Nə yaxşı dünyada olmadım avam,
Nadan, avamlarla çox olub davam.
İndi də ölümlə başlayıb qovğam,
Öldürür bu dərdim, qübarım məni.
Təbiət qoynuna aparın məni.

Mən eşqin odunda pərvanə oldum,
Sevgi yollarında divanə oldum.
Əsdi xəzan yeli, viranə oldum,
Çağırır röyası o yarın məni.
Təbiət qoynuna aparın məni.

Siz elə bilməyin narazıyam mən,
Sizin bu dünyadan çox razıyam mən.
Fəqət “o dünya”nın avazıyam mən,
O son mənzilimə çatdırın məni.
Təbiət qoynuna aparın məni.

İnsan təbiətin canlı barıdır,
Hər yeni doğulan bar nübarıdır.
Artıq həyatımın son baharıdır,
Ölərkən torpaqda yatırın məni.
Təbiət qoynuna aparın məni.

IV BÖLMƏ

QƏZƏLLƏR

Biz bu gün şad yaşayır, güclü cəmiyyət qururuq,
Baş əyir "Kaspi" kimi bir böyük uman Vətənə.

Könlünü şad elə, Zakir, demə təkdir obamız
Yaraşır ta ki, qədimdən ulu Şabran Vətənə.

* * *

Cənnət kefinə uyma, cəhənnəmdi bu dünya,
Hər insana son ucda ölüm,qəmdi bu dünya.

Ömrün qədəri iş suyunu artığa dəymə,
Zənn eyləmə əfsanəvi "zəm-zəm"di bu dünya .

Zülmü, əzabı varsa, nə mənası həyatın?
Rahmanlara yad, zalıma məhrəmdi bu dünya.

Haqqın əli çatmır ala haqsızlar əlindən,
Göylərdə uçan kürreyi-aləmdi bu dünya.

Güc əhli önündə susaraq əysə də boynun,
Gücsüzlərə qarşı daha ötkəmdi bu dünya.

Çoxdan bölünüb varlılara neməti-varı,
Çatmır kasıbın zənbilinə, kəmdi bu dünya.

Min dağ çəkilir haqqa,sağalmazdı yarası,
Haqsız və yalan dərdlərə məlhəmdi bu dünya.

Qan tökmədədir torpağına əhli siyasət,
İçdikcə qanı, ağlı çaşır, dəmdi bu dünya.

Zakir, nə qədər açsa da "şeytanlara" meydan,
İnsanlıq üçün ən gözəl əyləmdi bu dünya.

* * *

Borcluyuq biz hamımız verməyə bir can Vətənə,
Edərik istəsə hər an onu qurban Vətənə.

Gəzmişik çöllərini, dağ və düzənliklərini,
Bu gözəllikdə görüb olmuşuq heyran Vətənə.

Yeni saldıqca şəhər, kəndləri etdikcə abad,
Açmışıq düşməni ram etməyə meydan Vətənə.

Gəzir azad, dolaşır dünyanı şan-şöhrətimiz,
Verilib söz deməyə bir belə dövran Vətənə.

Biz bu gün şad yaşayır, güclü cəmiyyət qururuq,
Baş əyir "Kaspi" kimi bir böyük uman Vətənə.

Dar günündə hayına çatmağa bizlər dayanıb,
Qoymarıq kimsə yaza məhvinə fərman Vətənə.

Könlünü şad elə, Zakir, demə təkdir obamız
Yaraşır ta ki, qədimdən ulu Şabran Vətənə.

* * *

Yüz il yaşayıb yığma ögey varı Vətənsiz.
Dad verməyəcək bağlarının barı Vətənsiz .

Qürbətdə günün xoş, dadasan naz ilə nemət
Gündən-günə rəngin olacaq sarı Vətənsiz.

Dünyanı gəzib, ən uca yerlərdə dolaşsan,
Çox tez əriyər dağlarının qarı Vətənsiz.

Yad eldə tapıb cəm eləsən başına dostlar,
Tez -tez itirərsən belə dostları Vətənsiz.

Aldanma havaya, suları şərbət olana,
Vəsf eyləmə çöllərdəki gülzarı Vətənsiz.

Kef çəkmək üçün özgə vilayətlərə uysan,
Düz olmayacaq vaxtının ilqarı Vətənsiz.

Zakir, nə qədər olsa da hər yanda gözəllər,
Gəl seçməginən sən özünə yarı Vətənsiz.

* * *

Kiçik də olsa dövrəsi, dövlətə təndir ailə.
Qollu, budaqlı, gövdəli, köklü bədəndir ailə.

Cavan qız ilə oğlanın eşqə vəfası, vəhdəti,
İlki nigaha söykənən, razı ilə təndir ailə.

Cütün arzusu, istəyi, birgə əməyi, zəhməti
Ərin tarlaya şum çəkib, səpdiyi dəndir ailə.

Olsa təməldə birliyi, dərin hörməti, sevgisi,
Bax onda əzmi-karına, gör necə şəndir ailə.

Haram qatılsa xəmrinə, xəyanət ilə yoğrular,
Toxunma dəsti-xəttinə, umub-küsəndir ailə.

Fədakar ata qeyrəti,qayğıkeş ana isməti,
Oğullu-qızlı bir həyat,nəsil,kökəndir ailə.

Fərqi nədir ki, övladın sayı kiçikdi ya böyük,
Böyük, kiçiklə rəftarın, yerin biləndir ailə.

Olur dumanlı, kölgəli, həm də işıqlı yolları,
Həyat elmini öyrədən, kitabdı, fənndir ailə.

Artdı, çoxaldı Zakirin nəsli, yayıldı hər yana
Nəslini cümlə dünyada təmsil edəndir ailə.

* * *

Heyran qoyur ən duyğusuz insanı muğamat,
Daim yaşadır insana xoş anı muğamat.

Duyduqca dərindən necə ecazkar olurmuş,
Hopduqca cana pak edir imanı muğamat.

Yurdun bu sənət sərvəti, şah musiqi janrı,
Xalqın əbədi, ərkanı,irfanı muğamat.

Hər dinləyənin zövqünü oxşar segah ilə,
Verməz ona qəm çəkməyə imkanı muğamat.

Şur dəzgahı,təsniflə çahargahı gözəldir,
Sevdirdi bizə “Cabbarı”, həm “Xanı” muğamat.

Olmur qınamaq “Dilqəmi”, “Şahnazı”, “Herratı”,
Zəngulə çəkib coşdurur al qanı muğamat.

Eşqin əbədi carçısı, ehkamı məhəbbət,
Aşiq eləyib çox ərə, nisvanı muğamat.

Yad musiqi alətləri, xaric səsə qarşı,
Tarla, kaman ilə edir üsyanı muğamat.

Zakir, var əgər musiqi zövdün ona ruh ver,
Canlandıra şeirindəki misranı muğamat.

* * *

Layiq deyil ey yar əzaba, töhmətə könlüm.
Dözməz bu qədər intizara, möhnətə könlüm.

Göstər üzünü, qoyma kəsə qarşımı həsrət,
Möhtacdı yaman, sənlə şirin söhbətə könlüm.

Bənd olmuşam artıq, daha gecdir geri dönmək,
Vaxtdır ki, çata yar sarıdan hörmətə könlüm.

Gəl salma demişdim məni bu eşqi-bəlaya,
Aşiq olacaq səndəki "var-dövlətə" könlüm.

Çəkdin kamına, canıma od saldın odundan,
Sənsiz nəcə bir özgə həvəslə ötə könlüm?

Dağlandı sinəm, göynədi eşqin fərağından,
Gör halımı, yumşalda səni, kövrətə könlüm.

Zülm etmə pərəstişkarına, qaçma görüşdən,
Ol bağıma sakin ki, vüsala yetə könlüm.

Ey yar, deyəsən Zakiri çox gözlədəcəksən,
Dözsünmü ümid bəslədiyi möhlətə könlüm?

* * *

Bağa baxsan, yetişib bağ dolu barın olacaq,
Əkdiyin hər bir ağac sevgili yarın olacaq.

Dik tutub başını hər işdə güvənsən özünə,
Fəth edib zirvəni, dağ boyda vüqarın olacaq.

Ehtirasdan yaranan odlu məhəbbət diləsən,
Elə zənn etmə bu eşq daimi varın olacaq.

Bülbülə qibtə edib girmə gülün bağçasına,
Dolaşıb gül koluna, sinədə xarın olacaq.

Arzulardır aparan insanı daim irəli,
Kamına yetmək üçün güclü axarın olacaq.

Gər həyat eşqinə sadiq yaşayıb, ömr eləsən,
Bütün ömrün uzunu güllü baharın olacaq.

Zakir, aldansan əgər şöhrətə, dünya malına,
Dünyanı fani görüb, naleyi-zarın olacaq.

* * *

Ömrün təməli, təp-təzə dövrandı cavanlıq.
Meydanda həyat eşqinə cövlandı cavanlıq.

Dünya evinin cümlə bəşər nəsli içində,
Çılqın, “dəlisov”, bir igid oğlandı cavanlıq.

Həm güclü, cəsarətli və həm elmə həvəskar,
Qurmaqla, yaratmaqla ötən andı cavanlıq.

Daim çalışıb zəhmət ilə açdığı yolda,
Xoş arzu, məqam,eşq dolu karvandı cavanlıq.

Sağlamdı, təravətlidi, coşqundu həyatı,
Bəzən də həyat qatili qan-qandı cavanlıq.

Yollar arayır qaçmağa hər an qocalıqdan,
Tər güllər açan gəncliyə heyrandı cavanlıq.

Səyyadıdır eşqin, dolaşar dağı, aranı,
Ovlar cüyürü, ceyranı, tərlandı cavanlıq.

Zakir, əbədi, ardı kəsilməzdi bu dövrün,
Haqqdan yazılan bir ulu fərmandı cavanlıq.

* * *

Sevgisi yoxsa əgər çəkmə cəfasın o yarın,
Gözləmə, əhdə dönükdürsə vəfasın o yarın?

Könlünə vermə əzab, anda sədaqətli deyil,
Kökləyiblər sənə yad əqlə qafasın o yarın.

Aldanıb işvəsinə, hər dəfə uydun nazına,
Görmədin könlünə xoş zövqi-səfasın o yarın.

Zövqünü oxşamayır, özgə sayaqdır yerişi,
Qəlbinə qoyma yaxın, alma qadasın o yarın.

Süzdürüb qaş-gözünü canına odlar salacaq,
Görəcəksən hələ çox hökmü-ədasın o yarın.

Səni bimar eləyib saxta gözəlliklər ilə,
Dərdinə sanma əlac, içmə dəvasın o yarın.

Zülfünə çəkdi sığal, vurdu bəzək çöhrəsinə,
Amma heç dinləmədin sevgi sədasın o yarın.

Nə vuruldun belə Zakir, bu vəfasız gözələ?!
Verəsən birdəfəlik bəlkə cəzasın o yarın?

* * *

Sən mənim qaməti şux, sevgili cananımsan,
Qəlbimin parası, cismimdə əziz canımsan.

Çaşdırır ağlımı eşqin, dəyişir əhvalım,
Könlümün novrağı, ömrüm günü, xoş anımsan.

Bağçamın qönçə gülü, sevgimizin dastanı,
Günəşin tən yarısı, şəfəqdə al danımsan.

Bir həyat çeşməsisən, gərçi suyundan içsəm,
Sanaram cana axıb dövr eləyən qanımsan.

Boylanıb dörd tərəfə hansı cəhətdən baxsam,
Görürəm surətini, sən demə dörd yanımsan.

Gəl məhəbbət bağına qoyma nigaran yarı,
Vəslinə yetməyə can bəslədiyim kamımsan.

Zakirəm, mehmanım ol, çıxma kənar qəlbimdən,
Sən mənim varlığımı fəth edən insanımsan.

* * *

Üz çevirmə gözəlim, keçmə kənardan, bəri gəl,
Səni kim saldı uzaq, mən kimi yardan, bəri gəl.

Sən mənim eşq bağımın ilki, məhəbbət barısan,
Könlümü eyləmə məhrum belə bardan, bəri gəl.

Necə dözsün ürəyim, bir belə yersiz nazına,
Məni asad elə bu hökmü-qərardan, bəri gəl.

Qoyma həsrətdə qala, nurunu sal gözlərimə,
Həsrətin kordu yolu, dön geri ordan, bəri gəl.

Ətrini saç üzümə, ruhumu məst eylə gülüm,
Neçə vaxdır uzağam, səndəki vardan, bəri gəl.

Ürəyim dop-doludur vəsfinə möhtac söz ilə,
Qurtaraq intizarı, düşdüyü dardan, bəri gəl.

Çöhrəni çək yaxına, meylini döndər bu yana,
Zülfünü ver əlimə, qaçma tumardan, bəri gəl.

Eşqimin müjdəsisən, sevgi nübarım yetişib,
Zakiri etmə kənar sən bu nübardan , bəri gəl.

* * *

Qəm çəkmə könül, vermə güc ah-zarına, səbr et,
Yarın dönəcək əhdinə, ilqarına, səbr et.

Düşmə gümana,şübhələri salma araya,
Ver sidqini, kin bağlama dildarına, səbr et.

Döndərmə gözün yaşını, leysana aram ol,
Bir gün çağırar yar səni gülzarına, səbr et.

Gur yandır ümid şamını, çək meylini qəmdən,
Bənd etmə görüb hər gülü güldanına, səbr et.

Eşqin havasın çaldısa hər gah sənə dilbər,
Mizrabını düz köklə könül tarına, səbr et.

Aşiqsən əyər öz gülünə bülbülə bənzər,
Örtmə sinəni, sancıla gülxar, səbr et.

Hicranla ayaqlaş, yolunu azmasın eşqin,
Dözsən çatacaqsan vüsalın barına, səbr et.

Qəm tərk edəcək könlünü Zakir kimi sevsən,
Sevgin açacaq aquşunu yarına, səbr et.

* * *

Mən məhəbbətlə yanan odlu gözün vurğunuyam,
Könlümə şölə salan nurlu üzün vurğunuyam.

Çıxıram seyrə Vətən mülkünü zövq almaq üçün,
Məftunam dağlarına, həm də düzün vurğunuyam.

Yandırıb-yaxsa da əndamımı canan baxışı
Baxışından cana düşmüş o közün vurğunuyam.

Oxşayır gözlərimi işvəli yarın yerişi,
Dodağından süzülən sirli sözün vurğunuyam.

Eşqimin bənzəri var yanğılı bülbül səsinə,
Yolunu qəlbimə salmış bu izin vurğunuyam.

Heyran olsam nə qədər çöldə olan gül-çiçəyə,
Gül bağında qucağı güllü qızın vurğunuyam.

Zakirəm yarımı sevməklə ötürdüm yaşımı
Yetmişi haqlamışam, amma yüzün vurğunuyam.

* * *

Büllur kimi saf, pak edər insanı həqiqət.
Qoymaz susa haqsızlığa vicdanı həqiqət.

Gizlinləri, çirkinləri örtənlərə qarşı,
Dönməzdir üzü, qaldırar üsyanı həqiqət.

Yoxdur yalana, əyriliyə rəğbəti əsla,
Verməz dələduz, oğruya imkanı həqiqət.

Heç qüvvə onu sarsıda, ya məhv edə bilməz,
Gec-tez çıxarar aşkara pünhanı həqiqət.

Bəzən acıdır, haqqı dananlar dada bilməz,
Daim dar edər onlara dünyanı həqiqət.

Əlbəttə çətindir onu hər dəfə qazanmaq,
Dəf etməlidir hərzə və hədyanı həqiqət.

Çox qovğa açıb, məğlub edib haqqa cığalı,
Mənzil eləyib haqsıza zindanı həqiqət.

Zakir demə çoxdur bədəməl oğru, ədəbsiz,
Qoymaz gedə eldən ədəb-ərkanı həqiqət.

* * *

Məni ağlatma gülüm, bil ki, qəhərdən ölərəm.
Eşqinə çıxma dönük, salma təhərdən, ölərəm.

Elə bəndəm gözəlim, qoyma ki, könlüm darıxa,
Arabir gəl görüşə, dəy mənə hərdən, ölərəm.

Həsrətin möhnətini, zülmünü çəkdirmə mənə,
Əyləyib köhlənimi, salma yəhərdən, ölərəm.

Gözləməkdən gözümün rəngi boyanmış sarıya,
Necə göz yaşın içim, mən bu kədərdən ölərəm.

Hicranın aç yolunu, at mənə yaylıq, əl elə,
Qəm yükün yükləmə çox, aşma qədərdən, ölərəm.

Mən yaman qısqanıram, ey sənəm, əğyara səni,
Qoyma çıxsın yoluna, keçmə o yerdən, ölərəm.

Mənə biganə deyilsən bilirəm, naz eləmə,
Səbrimi qoyma daşa, dön bu xətərdən, ölərəm.

Zakirəm, gəl yanıma, ver mənə eşqin nübarın,
Baxtımı vurma daşa, düşsə kəsərdən, ölərəm.

* * *

Könül, yubanma çıx yola, gələn o yara bənzəyir.
Bu şux yerişli nazənin, nazlı nigara bənzəyir.

Baxma həsədlə bülbülə, sal yenə bağı sahmana,
Baxdı dönükdü bülbülün, öz gülü xara bənzəyir.

Düzüb zülfünə gülləri, alıb yanağı lalədən,
Gəlir ləçəkli bir çiçək, fəsli bahara bənzəyir.

Səbr elə gözlə yarını, uymaya ta ki, əğyara
Yetiş vüsalın ilkinə, o bir nübara bənzəyir.

Yaman düşmüşən eşqinə bu təm-təraqlı dilbərin,
Tanrı verib də boy-buxun, sərvi-çinara bənzəyir.

Ömrü gödəldi həsrətin, yaxın məqama az qalıb,
Gələn vəfadı, sevgidi, nə ah, nə zara bənzəyir.

Yığıb müşkünə ətrini, gəlir məst edə canını,
Yetikdi bağda meyvəsi, dadında nara bənzəyir.

Zakiri salma dər-bədər, vurma aranı yar ilə
Dəymə xətrinə, kövrələr, düşüb sınara bənzəyir.

* * *

Süzdür mənə bir də o ala gözləri, ay qız.
Söylə, eşidim sevgi dolu sözləri, ay qız.

Könlüm xoş olar sürməli müjdanını görsəm,
Örtmə, gözünə kölgələnər göz yeri, ay qız.

Gəz naz ilə qarşımda, durub əmrini söylə,
Qarşında əyib çökdürərəm dizləri, ay qız.

Gəl çıx görüşə, indi deyil Leyli zamanı,
Məcnun kimi gəzdirmə çölü, düzləri, ay qız.

Sən öylə gözəlsən, günəş axtarma səmada,
Bir zərri-günəşsən, bəzə gündüzləri, ay qız.

Tanrı mənim üçün səni vəhy etdi səmadan,
Gəl, qoyma yaxın könlümə yad üzləri, ay qız.

Cənnət gülüsən, ətrini, hər gül verə bilməz,
Bağımda mələklər bitirib özləri, ay qız.

Mən Zakirə rəhm et, yola gəl, ol mənə yoldaş,
Eşqin yoluna biz də salaq izləri, ay qız.

* * *

Toy əhli bu gün toplaşacaq məclisimizdə,
Yüzlərlə sevinc paylaşacaq məclisimizdə.

Dəvət olunub çoxlu qohum, dost və tanışlar,
Dostlar yenidən dostlaşacaq məclisimizdə.

Gənclər görüşüb, xanə qurur bir yeni cütlük,
Əhd ilə nigah bağlanacaq məclisimizdə.

Əlbət olacaq çalğıçı, xanəndə, müğənni,
Çalmaq, oxumaq gurlaşacaq məclisimizdə.

Tez-tez gələcək süfrəyə ləzzətli təamlar,
Hər adda yemək bollaşacaq məclisimizdə.

Söhbət açacaq dostlarımız bəylə gəlindən,
Sağlıq deyəcək, söz qoşacaq məclisimizdə.

Yəqin yoracaq çalğıçını rəqs eləyənlər,
Gənclər yenə meydan açacaq məclisimizdə.

Hay-küy salacaq bəlkə içib, kefli olanlar,
İçdikcə də həddin aşacaq məclisimizdə.

Zakir, bilirəm, sən də bu toyda olacaqsan,
Xoş keçsə, sevincin daşacaq məclisimizdə.

* * *

Çox darıxdım gözəlim, gəl bağa axşam, görüşək.
Toplayaq sevgi dolu anları bağdan, bölüşək.

Açmışıq qönçəmizi, biz təzə sevdalı gülük,
Bizə olmaz ki, qalaq həsrət içində, bürüşək.

Seyr edək, bəhsə girək göydəki ulduzlar ilə,
Göz vuraq bir-birinə, ay işığında öpüşək.

Dinləyək nəğməsini hər gecə şəbparələrin,
Oxuyaq nəğməmizi, asta səs ilə ötüşək.

Sənsiz ey yar, mənə gündüz də qaranlıq görünür,
Nurunu sal yoluma, qoyma azım, ayrı düşək.

Gəl qovaq ayrılığı, kölgə salır eşqimizə,
Qoruyaq eşqimizi, sevgi yolunda döyüşək.

Əlini ver əlimə ,girməsin əğyar araya,
Düşməyək özgə yola, öz yolumuzla şürüşək.

Zakiri qoyma nigaran, elə mehman özünə,
Sevişək, söhbət edək, şad günümüzdən, gülüşək.

* * *

Baxdım ki, görüm yarı, kor oldu yenə baxtım.
Tənhalıq içində ötüşür boş yerə vaxtım.

Gizlətdi özün, yar yolumu daşlığa saldı,
Daşdan-daşa dəydikcə,yıxıldıqca da qalxdım.

Yəqin ki, küsüb, bilmirəm ancaq nə səbəbdən,
Susmaqmı düşüb könlünə, ya səhvmi buraxdım.

Ağlar bulud oldum, gözümün yaşını tökdüm,
Döndüm selə, leysana,yanağım boyu axdım.

Eşqin nə dözülməz halı,sönməz odu varmış,
Heç sönmədi eşqim, canımı odlara yaxdım.

Yar könlümü qan eylədi, qalxdı göyə naləm,
Ahım bürüdü göyləri, şimşək kimi çaxdım.

Ey kaş ki, gələ, söyləyə nöqsanımı yarım,
Oldu nə günahım, bu qədər vaxtı darıxdım.

Mən Zakiri bənd etməyəcək özgə gözəllər,
Onsuz nə gərək, gər ki, qızıldan ola taxtım.

V BÖLMƏ

POEMA

Qobustan tarixin ədəb ərkanı,
Qobustan ölkəmin gözəl məkanı.

Yaşayır bu gün də öz adı ilə,
Açıb qucağını böyük bir elə.

QOBUSTAN DÜNYASI

(Tarixi poema)

PROLOQ

Daş, qaya yaddaşlı qədim Qobustan,
Sirlər, əfsanələr dolu bir dastan.

Keçib min illərin sərt yollarından,
Söz açır tarixin olaylarından.

Deyir: - Su örtərkən bütün dünyanı,
Bu yerdən yan keçmiş "Nuhun" tufanı.

Burada köç salmış bəşər övladı,
Onlardan qalıbdır Qobustan adı.

Hər daşı, qayası həyat simvolu,
Füsünkar aləmdən başlayır yolu.

Tayfalar, nəsillər köç edib burdan,
Yol açıb özünə sudan, qurudan.

Dünyanın ən qədim sivil məkanı,
"Təkamül" bu yerdən alıb təkanı.

Saysız salnamələr, saysız şəkillər,
Danışır daşların diliylə illər.

Ötən zamanların izidir onlar,
Qədim insanların sözüdür onlar.

Bu yer mədəniyyət tariximizdir,
Qobustan soyumuz, varisimizdir.

Birinci hissə

Bir gün nəsib oldu mənə səadət,
Bu qədim diyara etdim səyahət.

Gəzdim düzlərini, ormanlarını,
Gördüm dərəsini, yarğanlarını.

Üz tutdum möhtəşəm qayalıqlara,
Tarixi əks edən o qaynaqlara.

Açıldı qarşımda geniş mənzərə,
Sanki göydən enmiş bu daşlar yerə.

Hayana boylanıb baxdımsa burda,
Baxıb heyran oldum bu qədim yurda.

Bu daşlı, qayalı bəşər dastanı,
Olub insanların yaşam ostanı.

Burda həyat üçün çox əlləşiblər,
İnsanlar daşlaşıb, heykəlləşiblər.

Bunu sübut edir bu sal qayalar,
Dövri zamanların sözüdür onlar.

İşarə yazılar, daş kitabələr,
Nələr danışmayır bu daş namələr.

Keçib zamanların qarlı qışından,
Boylanır tarixin daş yaddaşından.

Minlərlə rəsmlər, saysız naxışlar,
Fərqli düşüncələr, fərqli baxışlar.

Hər biri bir dövrün yadigarıdır,
Qobustan dünyanın ilk diyarıdır.

İkinci hissə

Dünyanın bu qədim insan məskəni,
Yaşadıb özündə neçə nəsnəni.

Bu daşlar, qayalar durub yan-yana,
Arxa, kömək olub daim insana.

Bu yer təbiətin şah əsəridir,
Qədim daş dövrünün daş şəhəridir.

Qaynar həyat olub bu yerdə bir vaxt,
Şahlıqlar yaranıb, qurulub da taxt.

Fəth edib insanlar qayalıqları,
Geniş düzənləri, ovalıqları.

Yaşayıb qayalıq mağaralarda,
Ov edib çöllərdə, uca dağlarda.

Bu yerdə bol olub ov heyvanları,
İnsanlar ovlayıb hər an onları.

Qədim insanların qədim peşəsi,
Ovçuluq olubdur zövqü, nəşəsi.

Qobustan insanı min illər boyu,
Bu qədim sənətlə yaşadıb soyu.

Hər cür heyvan növü olub bu yurdda,
Şirlər, pələnglər də ovlanıb burda.

Vəhşi öküzlərin olmayıb sayı,
Düzlərə çıxıbdır meşədən ayı.

Bu yeri kimlərsə hallandırıblar,
Öküzlər diyarı adlandırıblar.

Dərəli, yarğanlı, palçıqlı çöllər,
Dəyişib görkəmin ötdükcə illər.

Coğrafi relyefi yarımsəhralıq,
Alçaq təpəlikli, yalçın qayalıq.

Bol sulu otlaqlar, yaşıl ormanlar,
Bəxş edib insana ən gözəl anlar.

Buradır məkanı qədim çağların,
Dünya möcüzəsi yanardağların.

Üçüncü hissə

Dünyanın bu kiçik qədim guşəsi,
Özünə cəlb edir bu gün hər kəsi.

Tarixçi alimlər keçib bu yerdən,
Tarixə yeni don biçib bu yerdən.

Səyyah, arxeoloq, tədqiqatçılar,
Axışıb buraya təfsiratçılar.

Bir-bir öyrənilib bu sirli ostan,
Yazılıb haqqında tarixi dastan.

Bu tarix dastanın varaqladıqca,
Səsinə hay verib soraqladıqca.

Ötdükcə zamanlar, illər, fəsillər,
Ayrılıb bu yerdən saysız nəsillər.

İnsanlar çoxalıb artdıqca burda,
Sığmayıb bu daşlı, qayalı yurda.

Yayılıb düzlərə, qalxıb dağlara,
Boylanıb dağlardan ötən çağlara.

Yeni yurd yerləri, ocaqlar qurub,
Bəşər tarixinə möhürün vurub.

Dördüncü hissə

Yurduna sığmayan Qobustan əhli,
Həyat soraqlayıb daha fərəhli.

Artıb çoxaldıqca aşıb daşıblar,
Yol alıb dünyaya ayaq açıblar.

Gələcək nəsillər bilsinlər deyə,
Diqqətli oldular ötən hər şeyə.

Çılpaq qayaları qazıb oyublar,
Saysız işarələr, izlər qoyublar.

Bizim Azərbaycan adlı ölkədə,
"Azıx"dan törənib bu yer bəlkə də.

Qobustan coğrafi adıdır onun,
Qobular, yarğanlar dəyişib donun.

Daş, qaya mənzilli o qədim şəhər,
Yaşayır ömrünü bir özgə təhər.

Tarixi muzeydir, indi bu yerlər,
Onu qoruq kimi qoruyur ellər.

Tarixin bu qədim insan dünyası,
Ötən əyyamların olub aynası.

Zaman dəyişsə də bu gün tövrünü,
Əks edir bəşərin neçə dövrünü.

Alimlər bu yeri alaraq gözə,
Görünməz qatları çıxarıb üzə.

Göstərib dünyaya həqiqətləri,
Susdurub qaranlıq bəd niyyətləri.

Canlı şəhadətdir yanar dağları,
Bu yerdən başlayır “Odlar diyarı”.

Beşinci hissə

Qayıtdım yenidən qayalıqlara,
Boylandım bir daha o qaynaqlara.

Baxdıqca bürüdü məni heyranlıq,
Canlandı gözümdə daşlar bir anlıq.

Dindi qaya üstdən oyma rəsmlər,
Danışdı, onları həkk edib kimlər.

Burda təsvir edib insan özünü,
Yazıb qayalara həyat sözünü.

Qazıb qayalarda qayıq rəsmini,
Çəkib qayıqların qamış nəslini.

Əks olub, neçə növ heyvan zümrəsi,
Qalxır rəsmlərdən quşların səsi.

Nəqş olub daşlara sirli balıqlar,
Bu sirri bizlərə açır qayıqlar.

Müxtəlif ölçülü çoxlu fiqurlar,
Sistemli şəkildə əks olunublar.

Hamıdan hündürdə günəş dayanır,
Aydın səmalardan yerə boylanır.

Hər şey düz ölçülüb, deyil təxmini,
Burada yaranıb günəş təqvimi.

Bütün görünənlər həyat rəmzidir,
Qədim əjdadların yaşam tərzidir.

Buradır tarixin əzəl açağı,
İlkin mədəniyyət, sənət ocağı.

Bu daş qalareya, rəsm sərgisi,
Hər biri bir əsər, hikmət dərgisi.

Altıncı hissə

Gəzdim heyranlıqla bu daş şəhəri,
Süzdüm qayaüstü rəsm-şirləri.

Könlümü ram etdi bu xoş mənzərə,
Bir addım yol imiş burdan "Xəzər"ə.

Burda ovçuluqla yarış aparmış,
Həm də balıqçılıq sənəti varmış.

Tapıb arasam da qədim izləri,
Oxuya bilmədim çox qəlizləri.

Açıldı qarşımda özgə mənzərə,
Baş vurdum neçə daş, soyuq mənzilə.

Mağara adlanan daşaltı evlər,
Yaranıb insandan çox-çox əvvəllər.

Bəlkə də bu yerdə xəlq olub insan,
Tapıb yaşamağa burada imkan.

Özünə yurd edib bu sərt yerləri,
İnsan əjdadının ilk nəsilləri.

Vəhşi təbiətlə durub üz-üzə,
Bu günkü dövranı qurublar bizə.

Görünür izləri o dövranların,
Ömrü qayalarda ötən anların.

Çatılıb burada saysız ocaqlar,
Tüstüyə bürünüb ətrafda dağlar.

İnsanlar hər axşam tonqal yandırıb,
Zülmət gecələri işıqlandırıb.

Artıb çoxalıblar toplum halında,
Qədim Qobustanın kahalarında.

Burda sığınmağa neçə qucaq var,
Çoxlu qaya altı dayanacaq var.

Ötüb bu yerlərdən neçə min illər,
Səsdən kəlmə doğub,yaranıb dillər.

Əcaib, qarışıq səslərdən yorub,
İnsan anlaşıqlı cümlələr qurub.

Söhbətlər qızışıb tonqal başında,
Rəsmlər həkk olub qaya daşında.

Gecələr baxaraq aydın səmaya,
Nəğmələr qoşublar ulduza, aya.

Budur; əfsanəvi qaval daşları,
Döydükcə oyadır daş yaddaşları.

Dünya möcüzəsi, insan icadı,
Musiqi irsinin ulu əjdadı.

Bu qaval daşının ecazkar səsi,
Yolundan saxlayır ötən hər kəsi.

Sirri, müəmması çoxdur bu yerin,
Bir-bir üzə çıxır, qazdıqca dərin.

Sanki mədəniyyət məbədi olmuş,
Tarixdən bizlərə yadigar qalmış.

Qazıntı işləri gedib bu yerdə,
Tapılıb nə qədər kurqan qəbir də.

Əntiq nümunələr, saysız əşyalar,
Bir-bir aşkarlanıb miflər, xülyalar.

Qaranlıq tarixə işıq saçıblar,
Alimlər keçmişə yollar açıblar.

Çox olub bu yurdun "pərvanələri",
Dünyanı dolaşıb əfsanələri.

Bu yerdə çoxları məskun olublar,
Daşlara xatirə yazıb qoyublar.

Gəlib "romalı"lar, gəlib "ərəb"lər,
Gətirib bu yerə qəribə dəblər.

Fəqət qalmayıblar burada yadlar,
Gedib bu yerlərdən özgə soyadlar.

Azıx mağarası qədim bir oda,
İnsanın əjdadı yaşayıb orda.

Qobustan, tarixin canlı yaddaşı,
Dil açıb danışır qayası, daşı.

Dünyanın bu iki qədim nəhəngi,
Yurdumun qüruru, şöhrət çələngi.

Bu yerə həsr edib Azər bəy canı,
Gətirib dünyaya Azərbaycanı.

EPİLOQ

Qobustan tarixin ədəb ərkanı,
Qobustan ölkəmin gözəl məkanı.

Yaşayır bu gün də öz adı ilə,
Açıb qucağını böyük bir elə.

Ayrıldım bu nadir daş incilərdən,
Ayıldım tarixi düşüncələrdən.

Nəhayət şeirimi sona yetirdim,
Bu tarix dastanın yazıb bitirdim.

MÜNDƏRİCAT

Ön söz..... 3

I bölmə. **VƏTƏN NƏĞMƏLƏRİ**

Ey Vətən!..... 8
"Şabran"ın tərənnümü..... 9
Çiraqqala..... 10
Qalalar..... 12
Lələtəpə zəfəri..... 14
Qələbə sevincin yaşamaq üçün..... 15
Şəhidlik zirvəsi..... 16
Şəhid anası..... 18
Darıxmışam..... 20
Təhsilim..... 22
Bülbül və qəfəs 23
Keçiqayası..... 25
Kəndim..... 27
A Şabranın gözəli!..... 28
Qəçrəş..... 30
Gör nə gözəldir..... 32

II bölmə. **MÜXTƏLİF ŞEİRLƏR**

Acı gerçək..... 34
Dünya..... 35
Qiyamət qoxusu..... 36
Dünyamıza yaz gələndə..... 38
Yollar..... 39
Mən saf su rəmziyəm..... 40
Təsəlli..... 42
Söz yerinə düşəndə..... 43
Söz..... 44
Məktəbim..... 45
Bu məktəb..... 47
Məzun..... 48
Ömür nəğməsi..... 49

Mən çağlayan bir bulağam..... 51
Dostuma nəsihət..... 52
Anamla xəyali söhbət..... 55
Xəsislik..... 56
Şərab..... 57
Təbiətə səyahət..... 58
Xəyallar aləmində..... 60
Qocalıq..... 63
Qələmim..... 64
Çox yaşamaq istəyirik..... 65
Tanrıdan istək..... 67

***III bölmə.* MƏHƏBBƏT TƏRANƏLƏRİ**

Məhəbbət tərənələri..... 69
İstəmirəm məhəbbətsiz yaşamaq..... 70
Sənə yarım söylədim ki,..... 71
Olmur..... 72
Gözəllər..... 73
İtmiş məhəbbətim..... 74
Aparın məni..... 75

***IV bölmə.* QƏZƏLLƏR**

Cənnət kefinə uyma, cəhənnəmdi bu dünya..... 79
Borcluyuq biz hamımız verməyə bir can Vətənə..... 80
Yüz il yaşayıb yığma ögey varı Vətənsiz..... 81
Kiçik də olsa dövrəsi, dövlətə təndir ailə..... 82
Heyran qoyur ən duyğusuz insanı muğamat..... 83
Layiq deyil ey yar əzaba, töhmətə könlüm..... 84
Bağa baxsan, yetişib bağ dolu barın olacaq..... 85
Ömrün təməli, təp-təzə dövrandı cavanlıq..... 86
Sevgisi yoxsa əgər çəkmə cəfasın o yarın..... 87
Sən mənim qaməti şux, sevgili cananımsan..... 88
Üz çevirmə gözəlim, keçmə kənardan, bəri gəl..... 89
Qəm çəkmə könül, vermə güc ah-zarına, səbr et..... 90
Mən məhəbbətlə yanan odlu gözün vurğunuyam..... 91
Büllur kimi saf, pak edər insanı həqiqət..... 92

Məni ağlatma gülüm, bil ki, qəhərdən ölərəm..... 93
Könül, yubanma çıx yola, gələn o yara bənzəyir..... 94
Süzdür mənə bir də o ala gözləri, ay qız..... 95
Toy əhli bu gün toplaşacaq məclisimizdə..... 96
Çox darıxdım gözəlim, gəl bağa axşam, görüşək..... 97
Baxdım ki, görüm yarı, kor oldu yenə baxtım..... 98

V bölmə. POEMA
Qobustan dünyası..... 100

ZAKİR BAYRAMLI

MƏN ÇAĞLAYAN BİR BULAĞAM

(Şeirlər, qəzəllər və poema)

Bakı – “Müəllim” nəşriyyatı – 2017

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.

Çapa imzalanmışdır 25.10.2017. Sifariş 95.
Kağız formatı $60\times84^{1/16}$. 7,0 ç.v. Sayı 100.